Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

12 MART 2019-cu il

№ 47 (3945)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTAN MÜXALİFƏTİ HƏMSƏDRLƏRİN SON BƏYANATINI PAŞİNYANA QARŞI İTTİHAM AKTINA ÇEVİRDİ - «ŞİLLƏ»...

səh. 8



## Ermənistanın yeni əndişəsi - Azərbaycan-ABŞ Kosmos əməkdaşlığı dərinləşir...

səh. 8

Prezidentin sakinlərin yazılı müraciətlərini şəxsən qəbul etməsindən cəmiyyətə iki mühüm mesaj...

səh. 3

Sosial siyasətin mərkəzində sadə həssas təbəqələrin dayandığına daha bir sübut - Prezident qulluqçuların maaşını ən sonda artırdı, həm də aşağı qulluqçulardan başladı...

səh. 3

Həmsədrlərin son bəyanatına Ermənistanın rəsmi dövlət reaksiyası cavabsız buraxıla bilməz...

səh. 6

Paşinyan isterikaya düşdü - Ermənistan Təhlükəsizlik Şurasının növbəti iclasını Xankəndiyə saldı...

səh. 5

AMEA problemli kreditlərin həllinin biznesin inkişafına təsir imkanları barədə...

səh. 7

Bakıda yeni rayonun yaradılması məsələsi reallaşır - Bakının "Tarixi Mərkəz rayonu..."

səh. 7

Bölgələrdə otellərin ulduzlarının sayı nə qədər az olsa, turistlərin sayı o qədər çox olar...

səh. 12

4 manatdan başlayaraq 2500 manatadək qiymətlə balıq kürüsü... Belə də "ikra" olar?

səh. 11



İlk Əliyev-Paşinyan görüşü ərəfəsində həmsədrlər təcavüzkar Ermənistanı «tərksilah» etdilər...

səh. 9



Paşinyana bir zərbə də İrandan gəldi - Ruhani baş nazirlə görüşün ardınca Azərbaycanın ərazi bütövlüyünü dəstəklədi...

səh. 6

Həmsədrlərin son bəyanatına əməl edilməsə - ermənilər Azərbaycan Ordusunun «hücum təlimləri»ndən bu nəticəni çıxarır

səh. 5

səh. 2

Birinci vitse-prezident Mehriban Əliyeva Fransada milyarder Rotşildlərdən olan məşhur şirkət rəhbəri ilə görüşdü



səh. 4

Həmsədrlər Azərbaycan Prezidentinin xəbərdarlıq effekti ilə söylədiyi son fikirlərdən nəticə çıxardı



səh. 10

Roma Papasının II Dünya müharibəsinə aid arxivlərini açırlar - Azərbaycan tarixçiləri üçün maraqlı araşdırma arenası...



səh. 12

Azərbaycan turizmin səviyyəsinə görə Avropada 7-ci yeri tutdu



səh. 11

Bakı bazarlarında "su qiymətinə" ət satılır, Qida... Agentliyindən açıqlama ala bilmədik...





## Prezident İlham Əliyev teatr və konsert müəssisələri işçilərinin maaşını artırdı

**Prezident İlham Əliyev Azərbaycan Respublikasında teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd olunur ki, ölkəmizdə teatr sənətinin daha da inkişaf etdirilməsi, teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət büdcəsindən maliyyə yardımı alan teatr və konsert müəssisələrində çalışan işçilərin aylıq vəzifə maaşlarının 2019-cu il martın 1-dən orta hesabla 50 faiz artırılması təmin edilsin.

Mədəniyyət Nazirliyinə və Maliyyə Nazirliyinə tapşırılır ki, bu sərəncamın icrası ilə bağlı zəruri tədbirlər görsünlər.

Nazirlər Kabinetinə bu sərəncamda nəzərdə tutulmuş tədbirin maliyyələşdirilməsi məqsədilə cari ilin və növbəti illərin dövlət büdcəsində maliyyə təminatı məsələlərinin həllini təmin etmək; bu sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

## Rusiya Arktikada 500-ə yaxın hərbi obyekt tikib

**Rusiya Müdafiə Nazirliyi 2012-ci ildən Arktikada 475 hərbi infrastruktur obyekti tikib.**

"Trend"-in məlumatına görə, bunu ölkənin müdafiə naziri Sergey Şoyqu Rusiya Dövlət Dumasının müdafiə komitəsinin iclasında deyib.

Nazir bildirib ki, 2018-ci ilin sonunadək Kotelnı, Aleksandra Torpağı, Vrangel adalarında və Şmidt burnunda tikilmiş obyektlərin ümumi sahəsi 710 min kvadrat metrdən çoxdur.

Onun sözlərinə görə, Arktikadakı hərbi obyektlərdə hərbi qulluqçular, xüsusi silah-sursat və texnika yerləşdirilib.

# Birinci vitse-prezident Mehriban Əliyeva Fransada milyarder Rotşildlərdən olan məşhur şirkət rəhbəri ilə görüşdü...

**Fransa Respublikasında səfərdə olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 11-də Parisdə "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşildlə görüşüb.**

"Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşildlə görüşündən məmnun olduğunu bildirən Birinci vitse-prezident Mehriban Əliyeva qeyd edib ki, XIX əsrdə Azərbaycanda çox məşhur olan Rotşildlər 1883-cü ildə "Xəzər-Qara dəniz neft sənayesi və ticarət cəmiyyəti"ni təsis etmişdilər. "Azərbaycan - Bakı o zaman neft sənayesinin mərkəzi idi və Rotşild qardaşları Bakıya böyük investisiya gətirmişdilər", - deyən Mehriban Əliyeva bütün bunların Bakıda neft sənayesinin daha da canlanmasına səbəb olduğunu diqqətə çatdırıb. Bununla yanaşı, Rotşild qardaşlarının xeyriyyəçiliklə də məşğul olduqlarını və Bakıda çoxlu gözəl binalar tikdirdiklərini deyən Azərbaycanın Birinci vitse-prezidenti əməkdaşlığın ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra da davam etdirildiyini bildirib, Azərbaycan Mərkəzi Bankı ilə "Rothschild Global Financial Advisory" şirkəti arasında imzalanacaq strateji əməkdaşlıq haqqında sazişin əhəmiyyətini vurğulayıb. Mehriban Əliyeva David dö Rotşildi ölkəmizə səfərə dəvət edib.



"Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild bu görüşdən şad olduğunu bildirərək, Rotşildlərin Azərbaycandakı fəaliyyətinin tarixi köklərinin olduğunu deyib. "Ailəmizin Sizin ölkənizdəki fəaliyyəti barədə bilirik və hesab edirəm ki, onlar tarixdə iz qoyan fəaliyyət göstəriblər", - deyən David dö Rotşild Azərbaycana səfər dəvətini məmnunluqla qəbul edib.

Görüşdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

Martın 11-də Fransa Respublikasında səfərdə olan Birinci vitse-prezident Mehriban Əliyeva "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Qebali ilə də görüşüb.

Görüşdə Azərbaycanla "Suez Groupe" şirkəti arasında ətraf mühit, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub, ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb.

# VII Qlobal Bakı Forumuna dünyanın müxtəlif ölkələrindən reaksiyalar başladı

***Albaniya Prezidenti:** "Qlobal Bakı Forumu regional və qlobal səviyyələrdə qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə mühüm töhfə verir"*

**Qlobal Bakı Forumu regional və qlobal səviyyələrdə qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə mühüm töhfə verir. Bunu Albaniya Prezidenti İlir Meta VII Qlobal Bakı Forumu ərəfəsində Trend-ə müsahibəsində deyib.**



İ.Meta qeyd edib ki, Qlobal Bakı Forumu görkəmli siyasi xadimlərin, iş adamlarının, elmi dairələrin və gənclər forumlarının nümayəndələrinin iştirak etdiyi mühüm qlobal platformaya çevrilib: "Bu platforma regional və qlobal səviyyələrdə dialoq və qarşılıqlı anlaşmanın yaradılması və möhkəmləndirilməsinə mühüm töhfə verir". Prezident bildirib ki, VII Qlobal Bakı Forumunun əsas mövzusu - "Dünyanın yeni xarici siyasəti" - bu töhfəni olduqca dəqiq əks etdirir: "Əminəm ki, Forumun keçirildiyi üç gün ərzində dünyada müxtəlif hadisələrə müsbət təsir edə biləcək bir çox qiymətli fikirlər səsləndiriləcək". İ.Meta vurğulayıb ki, bu gün dünyanın əməkdaşlıq körpüsü və inklüziv cəmiyyətə daha çox ehtiyacı var. Xatırladaq ki, martın 14-16-da keçiriləcək VII Qlobal Bakı Forumunda 70-dən çox ölkədən 450-dək qonaq iştirak edəcək. Forumda "Qlobal siyasətin dəyişməsində böyük güclərin rolu", "Davamlı inkişaf çağırışları", "Müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu" və digər mövzularda panel iclasları olacaq. Beynəlxalq tədbirdə dünyanı narahat edən qlobal siyasi və iqtisadi problemlər, müasir beynəlxalq münasibətlərin müxtəlif aspektləri ilə bağlı müzakirələr aparılacaq. Foruma bir sıra ölkələrin hazırkı dövlət və hökumət başçıları, nüfuzlu siyasi və ictimai xadimlər, tanınmış mediya nümayəndələri qatılacaq.

## "Şimali Kipr Türk Cumhuriyyətinin parlamentinin nümayəndə heyətinin Bakıya səfəri faydalı olardı"

**"Bakı Xəbər"in 8 mart 2019-cu il tarixli sayında "ŞKTC parlamentinin deputatlarının Bakıya səfəri prinsipial əhəmiyyət kəsb etməyə başlayır" başlıqlı yazı dərc olunub.**

Yazıda Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun Bakıda MM sədri Oqtay Əsədovla görüşü barədə məlumat verilir. Müxbirimiz Vidadi Ordahallı həmin yazısında bəzi Azərbaycan saytlarının Anadolu Agentliyindən götürülmüş məlumatına istinad edib və Mustafa Şentopun Oqtay Əsədovla görüşdə "Şimali Kipr Türk Cumhuriyyətinin parlamentinin nümayəndə heyətinin Bakıya səfəri faydalı oldu" kimi fikir söylədiyini bildirib. Şimali Kipr Türk Cumhuriyyətinin Bakı təmsilçisi xanım Ufuk Arça Turganer bununla bağlı ötən gün baş redaktorumuz Aydın Quliyevlə əlaqə saxlayıb. Araşdırmalarımız nəticəsində məlum olub ki, bəzi Azərbaycan saytlarının Anadolu Agentliyinə istinad etdikləri xəbərdə texniki yanlışlığa yol verilib. Belə ki, hörmətli Mustafa Şentopa məxsus "Şimali Kipr Türk Cumhuriyyətinin parlamentinin nümayəndə heyətinin Bakıya səfəri faydalı olardı" fikri səhvən "ŞKTC parlamentinin nümayəndə heyətinin Bakıya səfəri faydalı oldu" kimi verilib. Beləliklə, Mustafa Şentopun fikri bu cür oxunmalıdır:"ŞKTC-nin parlamentinin nümayəndə heyətinin Bakıya səfəri faydalı olardı". Texniki yanlışlığı aradan qaldırmaqda redaksiyamıza dəstəkçi olduğu üçün ŞKTC-nin Bakı təmsilçisi, dostumuz xanım Ufuk Arça Turganerə bir daha təşəkkür edir, texniki yanlışlığa görə hər kəsdən üzr istəyirik.

*Baki-xeber.com*

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -
Abunə!

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Prezidentin sakinlərin yazılı müraciətlərini şəxsən qəbul etməsindən cəmiyyətə iki mühüm mesaj...

**Son vaxtlar ölkə başçısı İlham Əliyevin əhalinin müxtəlif təbəqələrilə daha intensiv şəkildə birbaşa təmaslara keçdiyinin şahidi oluruq. Bu heç də Prezidentin həmin kateqoriya insanların problemləri ilə yalnız indiki dönəmdə maraqlanması kimi başa düşülməməlidir. Ölkə başçısı xalqın problemləri, onların həlli yolları ilə yaxından maraqlanmasaydı, təbiidir ki, bütün seçkilərdən qalib ayrıla bilməzdi.**



Amma gəlin, bunu da etiraf edək ki, müharibə şəraitində yaşayan, Dağlıq Qarabağ kimi qlobal problemi olan bir ölkənin başçısı kimi cənab Prezidentin hər bir vətəndaşın qayğışı, problemi ilə şəxsən maraqlanmaq üçün vaxtı da kifayət qədər deyil. Əslində, bunun üçün Prezidentə kömək etməsi vəzifə borcu olan kifayət qədər məmur kontingenti var. Aşağı pillədən tutmuş Prezidentə qədər olan böyük məmur ierarxiyası ola-ola əhalinin yürüyərək ölkə başçısına çoxlu sayda məktubları şəxsən vermək istəməsi hər halda məmur eşelonunun işində ciddi problemlərin mövcudluğunu ortaya çıxarır. Çünki əhalinin adi məişət problemlərini həll etmək kimi məsuliyyət Prezidentin deyil, birbaşa onların üzərinə düşür. Ancaq son vaxtlar ölkə başçısının daha mütəmadi şəkildə xalqın içində olması, vətəndaşlarla hətta rəsmi protokol qaydalarından kənara çıxaraq söhbət etməsi məmurlarla bağlı tamamilə fərqli mənzərəni canlandırmış oldu. Bir müddət əvvəl baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılması ilə bağlı gedən işlərlə tanış olmaq üçün Şamaxı və Ağsu rayonlarına etdiyi səfərlər zamanı biz əhalinin Prezidenti xüsusi sevgi və mehribanlıqla qarşılaması ilə yanaşı, eyni zamanda ona zərfin içində məktubların verildiyinin də şahidi olduq. Ölkə başçısı bütün məktubları aldı və söz verdi ki, həmin məktublardakı problemlərlə şəxsən tanış olacaq. Bu vəziyyət bir tərəfdən sevindiricidir ki, ölkə başçısı xalqın problemləri ilə şəxsən tanış olmaq imkanına sahib olur. Onun şəxsi istəyinə əsasən, məktubları birbaşa özü götürür. Ancaq məsələnin bir qədər də məyyusedici tərəfləri var. Bu da sözügedən məsələlərlə bağlı cavabdehlik daşıyan məmurlarla bağlıdır. Bilirik ki, əhalinin üzləşdiyi problemləri həll etmələri, bu istiqmaətdə şikayət vermələri üçün Prezidentə qədər kifayət sayda instansiyalar mövcuddur. Ancaq maraqlıdır ki, sadə əhali o kanlllardan istifadə etmir. Məktubları əlbəəl ölkə başçısına təqdim etməyə üstünlük verirlər. Deməli, sadə əhalinin Prezidentlə bu üsulla təmas qurmasına səbəb olan faktorlardan biri də bəzi məmurların əhalini narazı salmasıdır. Digər faktor isə Prezidentə rəsmi kanallarla göndərilən şikayətlərin ünvana yetişməmdiyi ilə bağlı olan narahatlıqdır. Məhz buna görə də ölkə başçısı ona məktub verən vətəndaşlara söz verərək, bunları dedi:"Ağsuda baş vermiş zəlzələ ilə əlaqədar müvafiq göstərişlər verilib. Dağılmış evlərin yerində artıq bu gün yeniləri tikilir. Bütün dağılmış evlər qısa müddət ərzində yenidən tikiləcək, qəzalı evlər əsaslı şəkildə təmir olunacaq. Mən bu gün gəlmişəm ki, işlərə özüm nəzarət edim, müvafiq göstərişlər verim və sizinlə görüşüm. Burada mənə verilən məktubların hər birinə baxılacaq. Narahat olmayın, zəlzələdən uçan bütün evlər yenidən tikiləcək. Mən gəlmişəm ki, problemləri həll edim. Mənim işim sizə xidmət etməkdir. Mən öz vəzifəmi bunda görürəm. Prezident kimi həmişə çalışmışam ki, Azərbaycan xalqına layaqətlə xidmət edim. Vətəndaşların narahat edən problemlərin həlli üçün bütün lazımi addımlar atılacaq".

Çox yaxşı olardı ki, ölkə başçısının etimad göstərib vəzifələrə təyin etdiyi məmurların da əsas qayəsi ölkə başçısı kimi Azərbaycan xalqına layaqətlə xidmət etməkdən ibarət olaydı. Hər bir məmur ona tapşırılan işi vicdanla yerinə yetirsə, biz bu qədər şikayət məktublarının Prezidentin üstünə axdığının şahidi olmarıq. Ümid edək ki, ölkə başçısının xalqla olacağı növbəti səfərlərində o bu mənzərə ilə bir daha rastlaşmayacaq. Biz heç də bu məsələnin inzibati üsullarla, yəni əhaliyə məktub vermək kimi qadağanın tətbiqi ilə həllinin tapılmasını nəzərdə tutmuruq. Onsuz da indiki məqamda bunu etmək mümkün deyil. Çünki Prezident istənilən yerdə avtomobilini saxladıb, istənilən evdə, kənddə qonaq ola, əhalinin problemi ilə yaxından maraqlana bilər. Bunun yeganə yolu əhaliyə əsl məmur xidməti göstərməkdən keçir - Prezidentdən öyrənin...

*Məhəmmədəli QƏRİBLİ*

# Sosial siyasətin mərkəzində sadə həssas təbəqələrin dayandığına daha bir sübut - Prezident qulluqçuların maaşını ən sonda artırdı, həm də aşağı qulluqçulardan başladı...

**Məlum olduğu kimi, Prezident İlham Əliyev "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə sərəncam imzalayıb.**

## *Fikrət Yusifov: "Bütün bunlardan sonra dövlət orqanlarında vahid tarif cədvəli ilə əməkhaqqı alan şəxslərin məvacibləri artırıldı"*



Sərəncama əsasən, bu il martın 1-dən dövlət orqanlarında qulluq edən dövlət qulluqçularının aylıq vəzifə maaşının minimum məbləği yardımçı vəzifələrdə çalışanlar üçün 165 manatdan 200 manata qaldırılıb. Bundan əlavə, 170 manat əməkhaqqı alanlar, müvafiq olaraq, 205manat, 175 manat alanlar 210, 185 manat alanlar isə 215 manat alacaq.

Burada diqqətçəkən məqam ondan ibarətdir ki, ölkə başçısı ilk əvvəl əhalinin sosial cəhətdən həssas və aztəminatlı təbəqələrinin təqaüd və sosial müavinətlərini, minimum əməkhaqlarını artırdı. Məlum olduğu kimi, ölkədə minimum əmək haqqı 50 manat artırılaraq 130 manatdan 180 manata çatdırıldı. Nəticədə dövlət sektorunda çalışan 450 min nəfərin minimum əməkhaqqı artdı. Eyni zamanda bu, özəl sektorda çalışan 150 min nəfəri də əhatə edəcək. Bununla yanaşı, əhaliyə verilən bütün sosial müavinət növlərinin məbləği əhəmiyyətli dərəcədə artırıldı. Məhz bütün bunlardan sonra dövlət qulluqçularının aylıq vəzifə maaşının minimum məbləği artırıldı. Özü də o dövlət qulluqçuları ki, onlar bu sahədə ən aşağı məbləğdə məvacib alırdılar. Nəzərə almaq lazımdır ki, sözügedən sektorda elə sahələr var ki, orada çalışanların məvacibləri digərlərinə nisbətən yüksəkdir. Ona görə də minimum əməkhaqqı alanların məvaciblərinin artırılmasına qərar verilməsi sosial siyasətin humanistliyinin göstəricisidir.

Digər tərəfdən, bəzən yersiz fikirlər səsləndirilirdi ki, ancaq dövlət sektorunda çalışanlara diqqət göstərilir, onların məvacibləri artırılır və s. Prezidentin məlum qərarları bütün bu iddiaların əsassız olduğunu ortaya qoydu.

## *"Bu, ölkə başçısının humanistliyindən irəli gəlir"*

**Sözügedən məsələni "Bakı Xəbər"ə şərh edən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, belə siyasət həm humanizmə söykənir, həm də bunun ciddi məntiqi əsasları var:** "Sosial müavinət və minimum əməkhaqqının artırılmasında dərin məntiq var. Çünki ilk əvvəl sosial dəstəyə daha çox ehtiyacı olan təbəqələrin sosial müavinətləri, yardımları və təqaüdləri artırıldı. Bütün bunlardan sonra dövlət orqanlarında vahid tarif cədvəli ilə əməkhaqqı alan şəxslərin məvacibləri artırıldı. Onların bəziləri çox aşağı tariflə əməkhaqqı alırdı. Məlum qərar da məhz minimum əməkhaqqı alanlara şamil edildi. Bu nəyin göstəricisidir? Bu uğurlu sosial siyasətin təcəssümüdür. Yəni birinci növbədə ehtiyacı olan təbəqələrin sosial müavinətləri və minimum əməkhaqqı artırılır. Ona görə də bu cür sosial siyasətin aparılması tam ədalətli və məntiqlidir. Hesab edirəm ki, sosial siyasətin həyata keçirilməsində bu cür yanaşmanın ortaya qoyulması əhalinin aztəminatlı təbəqəsinin maraqlarına xidmət edir. Bu həm də ölkə başçısının humanistliyindən irəli gəlir ki, daha çox ehtiyacı olan təbəqənin maraqlarının qorunmasına önəm verildi. Ona görə də düşünürəm ki, bu cür siyasət tamamilə doğrudur. Sosial müavinətlərin, təqaüdlərin, məvaciblərin minimum hissəsinin artırılması bu təbəqədən olan şəxslərin sosial vəziyyətinin yaxşılaşmasına öz müsbət təsirini göstərəcək".

*Vidadi ORDAHALLI*

# Həmsədrlər Azərbaycan Prezidentinin xəbərdarlıq effekti ilə söylədiyi son fikirlərdən nəticə çıxardı

**ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona son səfərdən sonra yaydıqları birgə bəyanat hərb meydanında Azərbaycanın 2016-cı ilin aprel qələbəsi qədər effekt verən diplomatik hadisə kimi qiymətləndirilməlidir. Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**

***Aydın Quliyev:** «Prezident İlham Əliyev Minsk Qrupu həmsədrlərinin son bəyanatına nail olmaqla münaqişənin sülh yolu ilə həlli prosesində yeni mərhələ açdı»*



A.Quliyev bildirib ki, həmsədrlərin Bakıda Prezident İlham Əliyevlə görüşdən sonra aldıqları birmənalı mesajlar hadisələrin belə cərəyan etməsində həlledici rol oynadı:

"Avropa təşkilatlarında və regionumuzda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir neçə hadisənin ardıcıl müşahidə olunması Ermənistanın bütün manevr imkanlarını heçə endirdi. Ermənistanın baş naziri Nikol Paşinyanın Brüsseldən tamamilə əliboş qayıtması, maliyyə yardımı ala bilməməsi, danışıqlar formatını dəyişməyə Avropa rəsmilərindən heç bir dəstək ala bilməməsinin ardınca həmsədrlərin bəyanatı ortaya çıxdı və əvvəlki hadisələri tamamladı. Paşinyanın ötən ilin mayından apardığı Qarabağ formatını dəyişmək avantürası, gözlənildiyi kimi, tam fiaskoya uğradı. Hətta Ermənistan müxalifəti bu bəyanatın məzmun etibarilə Paşinyana şillə zərbəsi olduğunu bildirdi. Artıq realdır ki, Paşinyan hökuməti üçün bundan sonra format dəyişikliyi ətrafında yayındırıcı və pozucu ritorika qurmaq asan və rahat olmayacaq. Hətta mümkündür ki, Paşinyan bu avantüraya bir daha qayıtmasın. Qayıtsa belə, bu dəfə tək Azərbaycanla yox, həm də Avropanın ali komissarları və Minsk Qrupunun həmsədrləri ilə üz-üzə qalmalı olacaq".

Ekspert qeyd edib ki, əslində Azərbaycan Prezidenti danışıqlar formatının dəyişməzliyi, nəticəyə yönəlik qeyd-şərtsiz danışıqların bərpası və indiki status-kvonun qəbuledilməzliyi məsələsində Ermənistanı təkləməyi və tərksilah etməyi bacardı: "Minsk Qrupunun həmsədrləri regiona səfərdən sonra açıq bəyan etdilər ki, qeyd-şərtsiz danışıqlar bərpa olunmalı, ənənəvi formatda, yeni Azərbaycanla Ermənistanın arasında danışıqlar davam etdirilməli, status-kvo dəyişdirilməli, məcburi köçkünlər ləyaqətlə öz yurdlarına qaytarılmalı, problem Helsinki Yekun Aktının məlum prinsipləri və həmsədr ölkələrin dövlət başçılarının bəyanatlarında ifadə olunmuş əlavə prinsiplər də nəzərə alınmaqla ədalətlə həll edilməlidir. Minsk Qrupunun həmsədrləri tərəfindən məsələnin bu qədər birmənalı qoyulması Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimi tərəf kimi danışıqlara cəlb etmək cəhdlərinin həmişəlik qarşısının alınması deməkdir".

Onun fikrincə, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin son bəyanatı həm də o baxımdan çox əhəmiyyətlidir ki, bundan sonra danışıqlarda yarana biləcək hər hansı fasilə və ya digər neqativ təzahürlərə görə hansı tərəfin konkret məsuliyyət daşıdığını bəyan etməyə aydın şərait yarandı: "Bu mənada, həmsədrlərin son bəyanatı danışıqlar prosesini Ermənistanın təxribatçı və pozucu fəaliyyət elementlərindən tam təmizlədi. Bəyanatın arxasında əhəmiyyətli nüanslardan biri həmsədrlərin Bakıda Prezident İlham Əliyevlə görüşdükdən sonra aldıqları mesajları aydın və qəti nümayiş etdirmələri oldu. Bir çox analitik və şərhçilər Azərbaycan Prezidentinin Bakıda həmsədrlərə və ATƏT-in fəaliyyətdə olan sədrinə söylədiyi qətiyyətli fikirlərin mütləq nəticə verəcəyinə öncədən inanırdı. Çünki Azərbaycan Prezidenti Ermənistan rəhbərliyinin ziddiyyətli bəyanatlarının pozucu rol oynadığını son xəbərdarlıq effekti ilə söyləmişdi. Həmsədrlərin bu qəti xəbərdarlıqdan lazımi nəticəni çıxardıqları göz qabağındadır".

A.Quliyev əlavə edib ki, həmsədrlərin bəyanatı və mövqeyi Azərbaycan diplomatiyasının məntiqli müqavimətinin və həmlələrinin birbaşa nəticəsidir: "Paşinyanın ötən il mayında format dəyişikliyi təxribatını ortaya atan andan Azərbaycan Prezidentinin arqumentli, məntiqli müqaviməti və həmlələri başladı. Bir qədər əvvəl Paşinyanın Brüsseldə məyus olması, format dəyişikliyinin yolverilməzliyi barədə Avropa komissarlarından eşitdiyi birmənalı bəyanatlar da məhz Azərbaycanın təsirlərinin və apardığı böyük işlərin nəticəsidir. Prezident Əliyev həmsədrlərin son bəyanatının ərsəyə gəlməsinə aparan yolun birmənalı yaradıcısıdır. Azərbaycan diplomatiyası bir neçə il əvvəl status-kvo məsələsində də bu cür qələbə qazanmışdı".

Ekspet bildirib ki, ilk vaxtlarda status-kvonun dəyişməsinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində nə qədər əhəmiyyətli olduğuna dünyada heç də bütün qüvvələr etimadla yanaşmırdı: "Ancaq Prezident Əliyevin ardıcıl diplomatik səyləri nəticəsində beynəlxalq müstəvidə status-kvonun prioritetliyi və müstəsna əhəmiyyəti birmənalı olaraq təsdiqləndi.

**Bu gün Ermənistandan başqa dünyanın bütün diplomatik siyasi dairələri status-kvonun dəyişməli olduğunu deyir. Azərbaycan diplomatiyası danışıqlar formatının dəyişdirilməsinin mümkünsüz olduğunu da bu cür qəbul etdirə bildi. Minsk Qrupunun həmsədrlərinin son bəyanatına nail olmaqla əslində Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması prosesində yeni mərhələ açdı".**

---

# Azərbaycan Paşinyanın pozucu siyasətinə qarşı "B" variantını işə salır

**Məlum olduğu kimi, Ali Baş Komandan İlham Əliyevin təsdiq etdiyi plana əsasən, martın 11-dən 15-dək Müdafiə nazirinin rəhbərliyi altında genişmiqyaslı təlimlər keçiriləcək. Təlimlərə 10.000 nəfərədək şəxsi heyət, 500-dək tank, zirehli texnika, eləcə də avtomobil və xüsusi texnika, 300-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 20-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunacaq.**



*"Düşmən tərəfi danışıqları sabotaj etməkdə davam edəcəksə, o zaman işğalçıya zərbə endirilməlidir"*

***Arzuxan Əlizadə:** "Keçiriləcək təlimlər fonunda Ermənistana hərbi təzyiqlər artırılmalıdır"*

Təlimlərdə qoşunlar hücum əməliyyatının hazırlanması, şərti düşmənə bir neçə istiqamətdə zərbə vurulması, onun müdafiəsinin yarılması və qruplaşmalarının darmadağın edilməsi, eləcə də düşmən ərazisinin dərinliyində yerləşən hərbi və strateji obyektlərə raketartilleriya zərbələrinin endirilməsi tapşırıqlarını yerinə yetirəcək. Eyni zamanda, təlim mərkəzləri və ümumqoşun poliqonlarında müasir silah sistemləri və vasitələrinin tətbiqi ilə döyüş atışları, o cümlədən raket buraxılışları praktiki icra olunacaq. O da məlumdur ki, Ermənistan müxtəlif bəhanələrlə Dağlıq Qarabağ danışıqlarından yayınır. Sözügedən genişmiqyaslı hərbi təlimlər də Ermənistan rəhbərliyinin son günlər Qarabağ danışıqlarından yayınmaq və provokativ bəyanatlarına bir mesajdır. Məsələ ondadır ki, Ermənistan rəhbərliyinin danışıqlarda destruktiv siyasəti Azərbaycanın hərbi müstəvidə fəallaşmasına təkan verir. ATƏT sədri ilə Prezident İlham Əliyevin son görüşündə belə aydın oldu ki, Azərbaycan danışıqlar xatirinə danışıqların aparılmasında maraqlı deyil. Azərbaycan real danışıqların aparılmasında maraqlıdır. Ermənistan münaqişənin həllinə yönəlik danışıqların aparılmasını istəmirsə, o zaman hərbi variant gündəmə gəlir. Bu da cəbhədə Ermənistan ordusuna lokal zərbələrlə müşayiət oluna bilər. Bu da bir neçə ay davam edən və cəbhədə nisbi sakitliyə səbəb olan Düşənbə razılaşmasının sona çatması deməkdir. Göründüyü kimi, danışıqlar prosesində irəliləyiş üçün Paşinyan siyasi iradə göstərə bilmir. Belə olan halda hərbi təzyiqlərin artırılmasını və keçiriləcək genişmiqyaslı hərbi təlimləri ekspertlər necə dəyərləndirir?

**Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, işğalçı tərəf danışıqlarda kompromisə getmədiyi üçün Ermənistana hərbi təzyiq artırılmalıdır:** "Bu baxımdan keçiriləcək hərbi təlimlərə müsbət yanaşıram. Ermənistan daxilində siyasi və ictimai dairələr bu təlimlərdən nəticə çıxarmalıdır. Çünki daxili qüvvələr hakimiyyətin ötən ilin sonlarında Azərbaycanla konusturiktiv danışıqlarına ciddi təzyiq etdilər. Proseslər dalana dirəndi. Bununla belə, görünən odur ki, Paşinyan hər vasitə ilə danışıqlardan yayınır. Bir ara separatçı tərəfin danışıqlarda tərəf olmasını gündəmə gətirdi. Bu variantın alınmadığını gördükdə isə format məsələsini ortaya atdı. Bu da dəstək qazanmadı. Paşinyan Brüsseldə səfərdə olarkən Avropa rəsmiləri sözügedən variantın əleyhinə olduqlarını bəyan etdilər. Ancaq buna baxmayaraq, Paşinyanın bəhanələri tükənən deyil. Bir müddət sonra başqa bir şey ortaya atacaq və real danışıqlardan yayınacaq. Ona görə də keçiriləcək təlimlər fonunda Ermənistana hərbi təzyiqlər artırılmalıdır. Ordumuzun bundan sonrakı fəaliyyəti ilə koordinasiyalı şəkildə diplomatiyamız da fəal olmalıdır. Necə deyərlər, Ermənistan rəhbərliyi ilə danışıqlar təzyiq altında keçirilməlidir. Ermənistandan verilən açıqlamalardan belə görünür ki, Azərbaycanın son variantı hərbi təzyiq ssenarisini işə salmaqdır. Düşmən tərəfi danışıqları sabotaj etməkdə davam edəcəksə, o zaman işğalçıya zərbə endirilməlidir. Özü də bu, aprel döyüşləri ilə müqayisədə daha genişmiqyaslı olmalıdır. Yalnız o zaman müsbət nəticə əldə etmək olar".

***Vidadi ORDAHALLI***

# Həmsədrlərin son bəyanatına əməl edilməsə - ermənilər Azərbaycan Ordusunun "hücum təlimləri"ndən bu nəticəni çıxarır

## Daşdəmir Əliyev: "Ermənistanı narahat edirsə, deməli, bunun tam əsası var"

**Martın 11-dən Azərbaycan Ordusu ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, müdafiə nazirinin rəhbərliyi altında genişmiqyaslı təlimlərə başlayıb. Müdafiə Nazirliyindən bildirilib ki, təlimlər martın 11-dən 15-dək keçiriləcək.**



*"Ya sülhlə torpaqları tərk etməlidirlər, ya da biz onları buna ordumuzun gücü ilə məcbur edəcəyik"*

Təlimlərə 10.000 nəfərədək şəxsi heyət, 500-dək tank, zirehli texnika, eləcə də avtomobil və xüsusi texnika, 300-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 20-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunacaq.

Təlimlərdə qoşunlar hücum əməliyyatının hazırlanması, şərti düşmənə bir neçə istiqamətdə zərbə vurulması, onun müdafiəsinin yarılması və qruplaşmalarının darmadağın edilməsi, eləcə də düşmən ərazisinin dərinliyində yerləşən hərbi və strateji obyektlərə raket-artilleriya zərbələrinin endirilməsi tapşırıqlarını yerinə yetirəcək.

Eyni zamanda təlim mərkəzləri və ümumqoşun poliqonlarında müasir silah sistemləri və vasitələrinin tətbiqi ilə döyüş atışları, o cümlədən raket buraxılışları praktiki icra olunacaq.

Qeyd edək ki, Azərbaycan Ordusunun bu təlimləri işğalçı Ermənistanda ciddi təşvişə səbəb olub. Erməni KİV-ləri bu təlimlə bağlı həyəcan təbili çalaraq qeyd edirlər ki, bu Azərbaycanın Ermənistana verdiyi sərt mesajdır. Xüsusilə də belə genişmiqyaslı hərbi təlimin ATƏT-in Minsk qrupu həmsədrlərinin verdiyi bəyanatdan dərhal sonraya təsadüf etməsi ciddi mülahizələrə yol açıb. Erməni analitikləri bildirirlər ki, Ermənistan rəhbərliyi həmsədrlərin son bəynatında qeyd olunan müddəalar əsasında hərəkət etməsə Azərbaycan hərbi yola əl atacaq. Bunun da ən görünən mesajı 10 minlik şəxsi heyətlə hücum təyinatlı təlimlərə başlamaqdır. Ermənilərin Azərbaycan ordusunun taktikası ilə bağlı dediklərini nə dərəcədə əsaslı saymaq olar?

**Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Daşdəmir Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan müstəqil dövlətdi, özünün müstəqil hərbi doktrinası var:** "Bu da onu deməyə əsas verir ki, nə vaxt, hansı yöndə hərbi təlimləri keçirmək bizim öz səlahiyyətimzə aiddir. Bizim qoşunlarımızın daim döyüşə hazır olmaları üçün belə təlimlərin mütəmadi keçirilməsinə zərurət var. Bizim bu addımız əslində kimisə narahat etməməlidir. Ermənistanı narahat edirsə, deməli, bunun tam əsası var. Çünki onlar başqasının torpağını işğal edib orda uzun müddətdir ki, oturub. Ona görə də vahimə içindədirlər. Həm də bu təlimlərin sülh danışıqları ilə bağlı səylərin aktivləşdiyi və daha konkret ifadə olunduğu bir dönəmə təsadüf etməsi onları daha da narahat edir. Anlayırlar ki, ordunun təlimləri ərazi bütövlüyümüzün təmin edilməsində hərb variantının ön plana çıxdığına işarədir.

Budəfəki təlimlər hücum xarakteri daşıyır. Həmin təlimlərə ordunun bütün qoşun növləri cəlb olunub və kompleks şəkildə hərbi təlimlərin keçirilməsi nəzərdə tutulur. Danışıqlar prosesi ətrafında Paşinyan və onun komandasının yaratdığı qeyri-konstruktiv mühit Azərbaycan tərəfinin danışıqların gələcəyi ilə bağlı tam ümidsizliyə düşməsinə səbəb olub. Ordunun döyüş əməliyyatlarına hazırlanması, münaqişənin hərb yolu ilə həll edilməsi variantı bu gün gündəmdə duran əsas məsələdir. Paşinyan özündən əvvəlki prezidentlərdən daha radikal, eyni zamanda məntiqsiz və sərsəm fikirlər səsləndirməyə başladı. Hətta onun hakimiyyətə gəlişindən sonra Ermənistan Müdafiə naziri David Tonoyan Ermənistan ordusunu yenidən quraraq, hücum taktikası üzərində formalaşdıracaqlarını açıqlamışdı. Bu, açıq-aşkar Azərbaycan tərəfinə psixoloji təhdid xarakteri daşıyır. ATƏT-in Minsk Qrupunun son bəyanatı ilə onların Ermənistan tərəfinin mövqeyini təmin etmədikləri bir daha ortaya çıxdı. Həmsədrlərin yaydığı bəyanatda danışıqların formatının dəyişməyəcəyi bir daha qeyd olundu. Görünən budur ki, onlar Paşinyanı sülhə dəvət edir, bu isə yayınır. Belə olan tədirdə təbiidir ki, Azərbaycanın yeganə yolu hərbi yola əl atmağa qalır. Ermənilər anlamalıdır ki, iki yolları var. Ya sülhlə torpaqları tərk etməlidirlər, yada biz onları buna ordumuzun gücü ilə məcbur edəcəyik. Artıq Azərbaycanın güclü ordusunun olduğunu onların özləri də etiraf edirsə, deməli, başlarına çarə qılmalıdırlar. Hamıdan çox isə ordumuzun zəfər çala biləcəyi gücünə biz inanırıq".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyan isterikaya düşdü - Ermənistan Təhlükəsizlik Şurasının növbəti iclasını Xankəndiyə saldı...

## Əli Orucov: "Ola bilsin ki, Paşinyan bu iclası separatçılarla birgə keçirməklə onları arxayınlaşdırmaq istəyir"

**Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə gedib. Erməni mətbuatının yaydığı məlumata görə, Qarabağda Ermənistan Təhlükəsizlik Şurasının növbədənkənar iclası keçiriləcək. Ermənistan Təhlükəsizlik Şurasının iclasında ATƏT-in Minsk Qrupunun son bəyanatının müzakirə olunacağı gözlənir.**




*"Onun danışıqların formatının dəyişdirilməsi ilə bağlı istəkləri beynəlxalq qurumlar və həmsədrlər tərəfindən dəstəklənmədi"*

Erməni mətbuatı onu da qeyd edib ki, Ermənistan Milli Təhlükəsizlik Şurasının iclasının Qarabağda keçirilməsi ilk dəfədir. İndiyə qədər sözügedən iclas Dağlıq Qarabağda keçirilməyib.

Onu da qeyd edək ki, ATƏT-in Minsk Qrupu həmsədrləri regiona son səfərlərindən sonra birgə bəyanat yaymışdılar. Bəyanatda bildirilib ki, Azərbaycan və Ermənistan liderləri ATƏT-in Minsk Qrupu həmsədrlərinin yaxın vaxtlarda görüş keçirmək təklifini qəbul ediblər. Bəyanatda qeyd olunur ki, həmsədrlər bu yaxınlardakı Bakı və İrəvan səfərləri zamanı liderlərin yanvar ayında Davosdakı Dünya İqtisadi Forumu zamanı baş tutan danışıqları barədə onları məlumatlandırıblar. Xatırladaq ki, regiona son səfərləri zamanı həmsədrlər Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanla sözügedən ölkələrdəki mövcud vəziyyəti müzakirə edərək bundan sonrakı addımlarla bağlı gözləntilərini çatdırıblar.

Maraq doğuran məqam odur ki, Ermənistan niyə məhz indi MTŞ iclasını Dağlıq Qarabağda keçirməyə qərar verib. Məqsəd separatçı rejim təmsilçilərinin iştirakını təmin etmək idisə, bunu İrəvanda da etmək olardı. Yəni həmin separatçıları Ermənistanda keçirilən iclasa dəvət etmək olardı. Zatən əvvəllər buna bənzər hallar olub. O zaman maraqlıdır, Paşinyan MTŞ iclasını niyə məhz Qarabağda keçirməyə qərar verib?

**Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, bunda bir neçə məqsəd ola bilər:** "Əvvəla, Paşinyanın Dağlıq Qarabağ münaqişəsinin həllində radikal mövqe sərgiləməsinə rəğmən, separatçı qurum təmsilçiləri ona o qədər də etibar etmir. Ən azından ona görə ki, Paşinyan "Qarabağ klanı"nı təmsil etmir. Paşinyanın "məxməri" inqilabı sözügedən klanın 20 illik hakimiyyətinə son qoydu. Eyni zamanda, Paşinyanla "Qarabağ klanı" təmsilçiləri arasında ciddi ziddiyətlər var. Bir ara bu klanı təmsil edən şəxslər hay-küy qopardılar ki, Paşinyan Qarabağ məsələsində güzəştlərə hazırlaşır. Qarabağda Ermənistan Təhlükəsizlik Şurasının növbədənkənar iclasında ATƏT-in Minsk Qrupunun son bəyanatının müzakirə olunacağı deyilir. Ola bilsin ki, Paşinyan bu iclası separatçılarla birgə keçirməklə onları arxayınlaşdırmaq istəyir. Yəni qorxmayın, heç bir güzəştdən söhbət gedə bilməz. Ya da o ola bilər ki, Paşinyan münaqişənin həlli ilə bağlı ona edilən təzyiqlər barədə separatçıları məlumatlandırsın. Nəzərə almaq lazımdır ki, Paşinyanın separatçı qurumun danışıqlarda tərəf olması ilə bağlı təşəbbüsləri baş tutmadı. Həmçinin, danışıqların formatının dəyişdirilməsi ilə bağlı istəkləri beynəlxalq qurumlar və həmsədrlər tərəfindən dəstəklənmədi. Paşinyanın Brüssel səfərində yaşananlar buna əyani sübutdur. Fikrimcə, bu məsələlər də iclasda əsas müzakirə predmeti ola bilər. Bəlkə də Paşinyan separatçıların Dağlıq Qarabağ danışıqları ilə bağlı yekun rəyini öyrənmək istəyir. Hər halda, belə halın baş verməsi diqqətçəkən məsələdir".

***Vidadi ORDAHALLI***

**Xəbər verildiyi kimi, xarici işlər naziri Elmar Məmmədyarov İran İslam Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin rəsmiləri ilə bir sıra görüşlər keçirib. Elmar Məmmədyarov İran prezidenti Həsən Ruhani ilə görüşündə bir sıra məsələləri, o cümlədən Dağlıq Qarabağ münaqişəsini müzakirə edib.**



*"Hesab edirəm ki, İran Ermənistandan işğala son qoymasını tələb etsəydi, onunla münasibətləri..."*

# Paşinyana bir zərbə də İrandan gəldi - Ruhani baş nazirlə görüşün ardınca Azərbaycanın ərazi bütövlüyünü dəstəklədi...

***Aydın Mirzəzadə:** "Həsən Ruhaninin sərgilədiyi yanaşma qonşuluq və beynəlxalq hüquq normalarını üstün tutma mövqeyidir"*

Prezident Ruhani Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh və diplomatik danışıqlar yolu ilə Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində həllini dəstəklədiklərini qeyd edib. Bənzər mövqeyi İran İslam Respublikasının İslam Şurası Məclisinin sədri Əli Laricani də ortaya qoyub. Belə ki, Laricani İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Məhəmməd Baqirinin Azərbaycana səfəri zamanı səsləndirdiyi fikirlərin İranın rəsmi mövqeyi olduğu bildirilib. O da münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğunu vurğulayıb.

İran prezidentinin Paşinyanın bu ölkəyə səfərindən sonra Azərbaycanın ərazi bütövlüyü ilə bağlı sərgilədiyi konkret mövqe maraq doğurur. Çünki Paşinyanın Xocalı qətliamının 27-ci ildönümündən bir gün sonra İrana səfər etməsi, İran ermənilərinin idman klubu "Ararat"ın stadionunda Azərbaycanın torpaq bütövlüyünü təhdid edən bir şüarın qarşısında çəkdirdiyi foto və ölkə rəsmiləri tərəfindən təmtəraqla qarşılanması Azərbaycanda birmənalı qarşılanmadı. Ən başlıcası ermənilər Paşinyanın səfərindəki bu məqamları maksimum şişirdilmiş formada təqdim etməyə çalışdılar. Xüsusən də belə rəy formalaşdırmağa çalışırdılar ki, İran bu məsələdə neytral mövqe ortaya qoyur. O baxımdan məhz Paşinyanın Tehrana rəsmi səfərindən sonra Ruhaninin Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində həllini dəstəkləməsi nə deməkdir? Ekspertlər bunu necə şərh edirlər?

**Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadə buna bir neçə konteksdən yanaşdı:** "Həsən Ruhaninin sərgilədiyi yanaşma qonşuluq və beynəlxalq hüquq normalarını üstün tutma mövqeyidir. İran əvvəldən də Azərbaycanın ərazi bütövlüyünü tanıyırdı və son dövrdə bu məsələdə mövqeyini qəti şəkildə ortaya qoyur. Ancaq bir məsələ var ki, onu da qeyd etmək lazımdır. Məsələ ondadır ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımadığı bir halda, İranın bu ölkə ilə yaxşı münasibətlərə malik olması işğalçı ölkənin etinasızlığına gətirib çıxarır. Yəni Ermənistanın beynəlxalq hüquq normalarını pozmasına gətirib çıxarır. Hesab edirəm ki, İran Ermənistandan işğala son qoymasını tələb etsəydi, onunla münasibətləri işğala son qoyulana qədər dondursaydı, o zaman vəziyyət tamam başqa cür olacaqdı. Yəni Ermənistan öz qoşunlarını çoxdan Azərbaycanın işğal olunmuş ərazilərdən çıxarardı. Çünki Ermənistanın İranla yaxşı münasibətlərə malik olması, bu ölkənin ayaq üstə qalmasına kömək edir. Ona görə də istərdik ki, İran bunu təkcə bəyan etməsin. Eyni zamanda, sözügedən məsələdə konkret addımlar da atsın. Ümumən, Paşinyanın İrana səfərindən sonra Ruhaninin məlum mövqeyini müsbət qiymətləndiririk. Ancaq bu sadəcə olaraq diplomatik mövqedir. İranın Ermənistanla yaxşı münasibətləri isə Dağlıq Qarabağ münaqişəsinin həllini uzadır".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, ATƏT-in Minsk Qrupunun həmsədrləri Endryu Şefer (ABŞ), Stefan Viskonti (Fransa) və İqor Popov (Rusiya) Azərbaycan və Ermənistan liderlərinin gözlənilən görüşünə dair bəyanat yayıb. Həmsədrlərin budəfəki bəyanatı konkret notlar və tələblər üzərində kökləndiyi üçün ciddi rezonans doğurub.**

# Həmsədrlərin son bəyanatına Ermənistanın rəsmi dövlət reaksiyası cavabsız buraxıla bilməz...



Həmsədrlər tərəfləri konkret müddəalar üzrə danışıqlar prosesinə çağırır və bildirirlər ki, işğal altındakı ərazilərin boşaldılması ətrafında müzakirələr aparılmalıdır. Eyni zamanda qeyd edilir ki, format dəyişikliyi ilə bağlı irəli sürülən tələblər heç müzakirə mövzusu belə ola bilməz.

Həmsədrlərin məlum bəyanatına ilk rəsmi reaksiyanı Azərbaycan tərəfi verdi.

Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva ATƏT-in Minsk Qrupu həmsədrlərinin Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında qarşıdan gələn görüşü barədə bəyanatını şərh edib.

Leyla Abdullayeva Azərbaycanın danışıqlar prosesinə sadiq və substantiv danışıqlara hər zaman hazır olduğunu qeyd edib:

"ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Azərbaycan Prezidenti ilə Ermənistanın Baş naziri arasında görüşünə dair təklifləri olub. Qeyd etmək istərdik ki, Azərbaycan danışıqlar prosesinə sadiqdir və substantiv danışıqlara hər zaman hazırdır. Azərbaycan tərəfi münaqişənin nəyicəyə yönəlik və intensiv danışıqlar yolu ilə həlli istiqamətində həmsədrlərin səylərini dəstəkləyir. Məlum olduğu kimi, indiyədək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında 3 dəfə, xarici işlər nazirləri arasında isə 4 dəfə görüş baş tutmuşdur.

Minsk Qrupunun həmsədrlərinin bu açıqlaması Ermənistana verilən bir siqnaldır, biz bunu alqışlayırıq. Prezident İlham Əliyev Minsk Qrupunun həmsədrlərini qəbul edərkən ölkəmizin bu səpkidə mövqeyini həmsədrlərin diqqətinə çatdırmışdı. Münaqişənin həlli üzrə danışıqlar Ermənistan və Azərbaycan arasında aparılır. Danışıqların formatı dəyişilməz olaraq qalır. Ölkəmizin işğal edimiş ərazilərində yaradılmış qondarma rejimin danışıqlara cəlb edilməsi və formatın dəyişdirilməsi cəhdləri qəbuledilməzdir..."

Ermənistanın rəsmi mövqeyi bir qədər geciksə də, ifadə olunub. Həmin ölkənin XİN sözçüsü Anna Naqdalyan açıqlamasında bildirib ki, Ermənistan həmsədrlərin irəli sürdüyü tələbləri qəbul edir: "Biz, bütün zamanlarda olduğu kimi, yenə də sülhə sadiqik".

Hər iki bəyanatı müqayisə edəndə, Ermənistanın faktları təhrif etdiyi açıq-aşkar görünür. Məsələn, Ermənistanın ifadə etdiyi rəsmi mövqedə həmsədrlərin işğal altında olan ərazilərin boşaldılması və format dəyişikliyinin mümkünsüzlüyünə dair səsləndirdiyi fikirlərə münasibət açıqlanmır. Başa düşürük ki, bunu Ermənistanın maraqlarına uyğun olmadığı üçün edirlər. Ermənistan XİN adından yayılan bəyanatda, nədənsə, daha çox tərəflərin hərbi ritorika ilə danışmasının mümkünsüzlüyü qabardılır. Və həmsədrlərin bu yöndə verdiyi açıqlamanın hədəfi kimi Azərbaycan göstərilir. Bu da kökündən yanlış olan yanaşmadır. Çünki son vaxtlar hərbi güclə hədələmə tonunda daha çox Ermənistan rəsmiləri danışıb. Ermənistanın müdafiə naziri məhz Xocalı faciəsinin ildönümünün qeyd edildiyi gündə yeni hücum silahları aldıqlarını, daha müdafiədə oturmayacaqlarını bəyan edib. Bundan sonra həmin ölkənin təhlükəsizlik naziri işğal altında olan ərazilərə səfər edib və orda Azərbaycana bir qarış da olsun torpağın qaytarılmayacağını bildirib. Bu iki fakt kifayət edir ki, həmsədrlərin məhz hərbi ritorika, güc tətbiqi ilə bağlı bəyanatda səsləndirdikləri fikirin ünvanının da Ermənistan olmasına sübhə yeri qalmasın. Bir sözlə, Ermənistanın ifadə etdiyi rəsmi mövqeyilə həmsədrlərin bəyanatını birtərəfli şərh edib, özünə sərf edən fikirləri ifadə edir. Azərbaycan tərəfi isə həmsədrlərin bəyanatının həqiqəti əks etdirdiyi üçün ölkəmizin rəsmi mövqeyinə yaxın olduğunu bildirir və onu dəstəklədiyini bəyan edir. Ermənistanın həmsədrlərin bəyanatı ilə bağlı rəsmi şəkildə məsuliyyətdən yayınma cəhdinə hansı formada reaksiya verilməlidir?

**Politoloq Qabil Hüseynlinin sözlərinə görə, ATƏT-in Minsk Qrupu həmsədrlərinin son bəyanatının müsbət tərəfi münaqişə tərəflərinin danışıqlara dəvət edilməsi və danışıqlar formatının müəyyənləşdirilməsidir:** "Paşinyan tez-tez qondarma separatçı rejimin danışıqlara dəvət edilməsi və danışıqlar formatının dəyişdirilməsini ilə bağlı fikirlər irəli sürürdü. Hətta təkidlə bildirirdi ki, bu format olmasa, danışıqlara getməyəcək. Amma həmsədrlərin son bəyanatı bir daha təsdiq etdi ki, danışıqlar yalnız Azərbaycan və Ermənistan arasında aparılmalıdır"

Bəyanatda bir sıra məsələlərin sadalandığını deyən politoloq söyləyib ki, həmsədrlər sənəddə Dağıq Qarabağ hüdudlarından kənarda yerləşən 7 rayonun işğaldan azad edilməsi, bunun müqabilində Dağlıq Qarabağa keçici statusun verilməsi, həmçinin bölgəyə sülhməramlı qüvvələrin gətirilməsi ilə bağlı fikirlər sadalanır.

Q.Hüseynlinin sözlərinə görə, əsas məsələ danışıqların formatının dəyişdirilməsi ilə bağlı məsələ idi ki, bəyanat göstərdi ki, ATƏT-in Minsk Qrupu da Azərbaycanın mövqeyini müdafiə edir: "Amma bütövlükdə proseslərin sonrakı inkişafı, xüsusilə ərazi bütövlüyü məsələsi ilə millətlərin öz müqəddəratının təyin etməsi prinsipi çox ciddi surətdə vurğulanır. Bəyanatda ərazi bütövlüyü məsələsi ön plana çəkilir".

Politoloq qeyd edib ki, Avropa İttifaqı, ATƏT-in Minsk Qrupu qabaqcadan irəli sürülən şərt olmadan tərəflərin əvvəlki formatda danışıqlara getməsini tövsiyə və hətta tələb edir: " Bu isə Paşinyanın səfeh fikirlərini altüst edilməsi deməkdir. Bütün bunlar bir daha göstərir ki, şərt qoyulmadan danışıqlara başlanılmalıdır. İndi hər şey Ermənistanın Minsk Qrupunun tələbinə necə cavab verməsindən asılı olacaq".

Politoloqun sözlərinə görə, Ermənistan XİN adından yayılan bəyanat daha çox məsuliyyəti öz üzərindən atmağa bənzəyir: "Biz mövqeyimizi ifadə etmişik. Bundan sonra Ermənistanın hər bəyanatını şərh etməyə lüzum da görmürəm. Hesab edirəm ki, Ermənistan tərəfi ən qısa zamanda bu məsələ ilə bağlı daha dolğun mövqe ortya qoymalıdır. Daha doğrusu, söz oynatmamalıdır. Mövqelərində konkretlik olmasa, bu o deməkdir ki, onlar tamamilə başqa taktika seçiblər və danışıqlar prosesinə etiraz edirlər. İstənilən halda, Azərbaycan hadisələrin hər iki istiqamətdəki gedişinə hazırdır".

***Məhəmmədəli QƏRİBLİ***

İqtisadiyyat və bank sektoru üçün uzun müddətdən bəri ciddi başağrısına çevrilən problemli kreditlərin həlli istiqamətində atılan addımlar qarşıdakı dövr ərzində banklar üçün də bir çox mühüm üstünlüklər vəd etməkdədir. Belə vəziyyətdə həm də bankların ölkə iqtisadiyyatında daha fəal rol oynaması, kredit faizlərinin aşağı düşməsi gözlənir.

# AMEA problemli kreditlərin həllinin biznesin inkişafına təsir imkanları barədə...




Bu mənada, Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərman, aydındır ki, uzunmüddətli dövrdə Azərbaycan iqtisadiyyatına mühüm töhfələr verməkdə davam edəcək. Ümumilikdə bu fərman problemli kreditlər məsələsinin köklü şəkildə həll edilməsinə imkan verəcək.

Yeri gəlmişkən qeyd edək ki, ölkədə bu qəbildən olan kreditlərin məbləğinin azalması müşahidə olunur. Araşdırmalar göstərir ki, ölkədə vaxtı keçmiş kreditlərin məbləği bu il fevralın 1-nə 1 milyard 569,4 milyon manat təşkil edib. Bu, yanvarın 1-i ilə müqayisədə 1%, ötən il fevralın 1-nə nisbətən isə 7,5%azdır. Yanvarın sonuna problemli kreditlərin ümumi kredit portfelində payı 12,6% təşkil edib. Bu nisbət ötən ilin sonuna 12,2%, ötən ilin yanvarın sonuna isə 14,55% olub. Rəqəmlərdən göründüyü kimi, problemli kreditlərin həcmi sürətlə azalır. Məsələ ilə bağlı Prezidentin məlum fərmanın icrasından sonra isə azalma həddi daha böyük olacaq. Məhz bu da banklara qarşıdakı dövrdə ölkə iqtisadiyyatında daha çevik rol oynamaq imkanı qazandıracaq. Bütün bunlar onu göstərir ki, Azərbaycanda fiziki şəxslərin problemli kreditlərlə bağlı məsələsinin həll edilməsi həm də ölkənin bank sektoruna dəstəkdir. Belə ki, bununla banklar sağlamlaşacaq, kapital baxımından ciddi dəstək alacaqlar, aktivlərindəki problemli hissəsini azaldacaqlar . Digər tərəfdən, onlar uzunmüddətli kreditləşmə üçün ucuz maliyyə resursları əldə edəcəklər. AMEA İqtisadiyyat İnstitutunun qloballaşma və beynəlxalq iqtisadi münasibətlər şöbəsinin müdiri, iqtisad elmləri doktoru Fuad Qənbərov da məsələyə bu rakursdan yanaşır. Onun sözlərinə görə, Azərbaycan digər postsovet ölkələrinə nisbətən problemli kreditlərin həllində daha sistemli və əhatəli yanaşma ortaya qoya bilib.

İqtisadçı qeyd edib ki, yüksək humanistlik nümunəsi olan prezidentin məlum fərmanı ilə 800 min əhalinin xarici valyutada kreditlərinin manat ifadəsində devalvasiyadan əvvəlki səviyyəyə qayıtması təmin ediləcək: "Eyni zamanda, problemli kreditlərin güzəştli şərtlərlə restrukturizasiya olunması nəzərdə tutulur. Yəni aşağı faiz, uzun müddət və güzəşt dövrü, faizlərin silinməsi və milli valyutada kreditlərin verilməsi mühüm sosial-iqtisadi əhəmiyyətə malikdir. Bununla əhali tərəfindən kreditlərin ödənməsinə yönəldilən vəsaitin həcmi azalacaq və vətəndaşların sərəncamında qalan gəlirlər artacaq. Nəticədə, əhalinin digər tələbatlarını qarşılamaq imkanları əhəmiyyətli dərəcədə artacaq. Bununla da, vətəndaşların sosial rifah halı daha da yaxşılaşacaq".

F.Qənbərov bildirib ki, fərman təkcə əhalinin müxtəlif təbəqələrini deyil, eyni zamanda, bank sisteminin problemlərini də əhatə edir: "Belə ki, sənəddə bank sektorunun maliyyə dayanıqlığının qorunması məsələləri də nəzərə alınıb. Fərmanla kredit borclarının restrukturizasiyası məqsədilə Mərkəzi Bank tərəfindən banklara 682 milyon manat məbləğinədək illik faiz dərəcəsi 0,1 faiz olmaqla 5 il (1 il güzəşt müddəti ilə) müddətinə kreditlər veriləcək. Bu kreditlərin dövlət zəmanəti ilə verilməsi dövlətin bank sektoruna böyük etimadıdır. Bu zaman banklar güzəştli şərtlərlə və ucuz maliyyə resursları əldə edirlər. Bu isə biznes və bütövlükdə iqtisadiyyatın ucuz maliyyə resurslarına çıxış imkanlarının yaranması deməkdir. İqtisadi baxımdan isə fərman bankların sağlamlaşdırılması və kredit portfelinin pis aktivlərdən təmizlənməsinə müsbət təsir göstərəcək. Bildiyiniz kimi, problemli kreditlər bankların maliyyə vəziyyətinə də mənfi təsir edirdi. Belə ki, problemli kreditlərə görə ehtiyat ayırmaları bank kapitalının "yeyilməsi"ni zəruri edir. Bu səbəbdən də düşünürəm ki, fərmanda nəzərdə tutulmuş tədbirlərin realizasiyası bankların maliyyə sağlamlaşmasına müsbət təsir göstərəcək. İlk növbədə, bankların kredit portfeli sağlamlaşdırılacaq və bununla da problemli kreditlərin bankların kapitalına yaratdığı təzyiq aradan qaldırılacaq. Kompleks şəkildə baxdıqda isə banklara həm kapital dəstəyi, həm də iqtisadiyyatın kreditləşdirilməsi üçün maddi dəstək bütöv iqtisadiyyatı əhatə etmiş olur və real iqtisadiyyatın inkişafına dəstək olacaq".

Ekspert bildirib ki, həmin fərman bank - müştəri münasibətlərində yeni format yaradacaq. Bu isə biznesin daha yaxşı inkişaf etdirilməsinə təkan verəcək. Bütün bunlar, öz növbəsində, qarşıdakı dövr ərzində dövlət-özəl sektor münasibətlərinin və biznes mühitinin inkişafında əhəmiyyətli dəyişikliklər də istisna olunmur.

*Tahir TAĞIYEV*

---

Bakının tarixi mərkəzinin yaradılması reallaşır. Azərbaycan Memarlar İttifaqının sədri Elbəy Qasımzadənin verdiyi məlumata görə, Prezident İlham Əliyev Bakının tarixi mərkəzinin ayrıca rayon kimi təşkili ilə bağlı müvafiq göstərişlərini verib.

# Bakıda yeni rayonun yaradılması məsələsi reallaşır - Bakının "Tarixi Mərkəz rayonu..."

*"Prezidentin Bakının tarixi mərkəzinin ayrıca bir rayon kimi təşkil edilməsi ilə bağlı göstəriş verməsi, həqiqətən də, çox mühüm məsələdir"*



*"Bu rayonda Bakının tarixi, mədəniyyəti, keçmişi, adət-ənənəsi, etnoqrafiyası qorunub saxlanacaq"*

O bildirib ki, bu gün ölkədə quruculuq sahəsində, yaradıcılıq sahəsində çox böyük işlər görülür: "Mən Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimləri ilə görüşündə belə bir təkliflə çıxış etdim ki, Bakının tarixi mərkəzinin sərhədləri müəyyənləşsin və onu Bakı Şəhər İcra Hakimiyyəti tərkibində ayrıca mərkəzi rayon kimi qəbul etsinlər. Yekun çıxışında cənab Prezident bu təklifə daha çox vaxt sərf etdi, artıq müvafiq göstərişlərini də verib"-deyə E.Qasımzadə bildirib. O, həmçinin vurğulayıb ki, hazırda bu məsələnin üzərində çox fəal iş aparılır:"Ötən beş gün ərzində mənim, demək olar, bir saniyə sərbəst vaxtım olmayıb, çünki bu işlə məşğul olan bütün dövlət təşkilatları, nazirliklər, o cümlədən Mədəniyyət Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Bakı Şəhər İcra Hakimiyyəti, Əmlak Məsələləri Dövlət Komitəsi hər gün mənimlə əlaqə saxlayırlar və bu işin reallaşmasına doğru təkliflər və müzakirələr aparırlar. Məncə, bu gün bu məsələ belə yüksək səviyyədə müzakirə olunursa, yəqin ki, qısa müddətdə bu barədə qərar qəbul olunacaq".

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Vaqif Abışov "Bakı-Xəbər"ə bildirdi ki, Bakının tarixi mərkəzinin yaradılmasına çoxdan ehtiyac var idi. Onun sözlərinə görə, Bakının tarixi mərkəzinin ayrıca bir rayon kimi təşkil edilməsi bir sıra baxımdan faydalıdır. Bunun böyük tarixi əhəmiyyətə malik olacağını qeyd edən tarixçinin bildirdiyinə görə, Prezidentin bu barədə verdiyi tapşırıqların tezliklə icra ediləcəyinə inanır və hesab edir ki, əlaqədar qurumlar bu istiqamətdə daha ciddi fəaliyyət göstərməlidir. "Prezidentin Bakının tarixi mərkəzinin ayrıca bir rayon kimi təşkil edilməsi ilə bağlı göstəriş verməsi həqiqətən də, çox mühüm bir məsələdir. Deyim ki, bu gün dünyanın bütün qədim şəhərlərinin ərazilərində bu cür rayonlar təşkil edilib və həmin rayonlara turistlər kütləvi maraq göstərir. Həm Romada, həm İngiltərədə, həm də digər ölkə və şəhərlərdə belə mərkəzlər yaradılıb. Bakının da tarixi mərkəzinin bir rayon kimi təşkil edilməsinin əhəmiyyəti böyük olar. Bu rayonda Bakının tarixi, mədəniyyəti, keçmişi, adət-ənənəsi, etnoqrafiyası qorunub saxlanılacaq. Bilirsiz ki, son illər Bakının mərkəzi yerlərində tikintilər aparıldı, hətta bunun nəticəsində bizim bir çox tarix-mədəniyyət abidələrimizə zərər dəydi. Burada belə xoşagəlməz hallar baş verdi. Cənab Prezident tərəfindən belə bir göstərişin verilməsi həm İçəri Şəhər də, həm də bayır şəhərdə yerləşən abidələrin mühafizəsində də mühüm rol oynayacaq. Bakıda və Bakıətrafında elə abidələr var ki, onlar ciddi şəkildə qorunmalıdır. Şəhərimizə gələn turistlərin də bu abidələrlə ətraflı tanış olması üçün belə bir mərkəzi rayonun yaradılmasına zərurət vardı".

V.Abışov həmçinin qeyd etdi ki, Bakının mərkəzində ayrıca bir rayonun təşkil edilməsinin yalnız müsbət tərəfi ola bilər. "Bakı siti yaratmaq olar. Özü də bu rayona xüsusi yanaşılacaq və burada olan bütün abidələr qorunacaq. Hesab edirəm ki, yerli memarların dəstəyi ilə əlaqədar qurumlar tezliklə bu rayonun sərhədlərini müəyyən etməli və burada işə başlamalıdır"-deyə müsahibimiz bildirdi. O eyni zamanda bildirdi ki, bu rayon təşkil edildikdən sonra ora ayrıca bir turist məkanı kimi özünə dünyada böyük şöhrət tapacaq.

*İradə SARIYEVA*

# Ermənistanın yeni əndişəsi - Azərbaycan-ABŞ Kosmos əməkdaşlığı dərinləşir...

**Bəlli olduğu kimi, Azərbaycanda yüksək texnologiyaların tətbiqi və ölkədə Kosmos sənayesinin yaradılması bu gün xüsusi diqqət mərkəzindədir. Qeyd edilən istiqamətdə görülən işlər nəticəsində Azərbaycan artıq dünyanın kosmik ölkələri sırasında yer alır. Xüsusən də orbitə üçüncü peykini göndərən Azərbaycan bu istiqamətdə fəaliyyətini daha da genişləndirməkdədir.**




Xatırladaq ki, hələ ötən ilin sonunda Prezident İlham Əliyev 2019-2022-ci illərdə yerli peyklərin xidmətlərinin inkişafı üzrə Dövlət Proqramını təsdiq edib. Bu sənəd yaxın 3 ildə müxtəlif dövlət strukturları və özəl şirkətlər tərəfindən peyklərin məlumatlarının istifadəsinin inkişafı sahəsində görülən işlərin miqyasının daha geniş hala gəlməsinə rəvac verəcək.

O da birmənalı həqiqətdir ki, Kosmosun fəthi iqtisadiyyatın səviyyəsinin və milli təhlükəsizliyin müəyyən olunmasının mühüm amilidir. Dövlətin iqtisadi inkişafının və hərbi gücünün artırılması kosmik tədqiqatlar sahəsində fundamental elmi biliklərin genişləndirilməsini tələb edir. Aerokosmik məkanda yerləşdirilən cihazlar və komplekslər tədqiq olunan obyektlər haqqında genişmiqyaslı və keyfiyyətcə yeni məlumatların alınmasına əlverişli imkanlar yaradır. İndi Azərbaycanın belə imkanlara sahib olması, eləcə də qeyd edilən səpkidə müxtəlif xarici ölkələrlə, o cümlədən də ABŞ-la əməkdaşlığı işğalçı Ermənistanda böyüük narahatlığa yol açıb. Bunu "armeniasputnik.am" portalının yazdıqlarından da aydın görmək olar. Portal bu xüsusda Azərbaycanın Qafqazda lider olduğunu, Ermənistanı çox geridə qoyuduğunu vurğulayır: "Ekspertlər diqqəti buna yönəldir ki, ABŞ son illərdə Kosmosun mənimsənilməsində Bakının əsas tərəfdaşına çevrilir. ABŞ ötən ilin dekabrında Azərbaycana ümumilikdə 109 milyon dollar məbləğində aviasiya-kosmik məhsulların önəmli həcmini ixrac edib. Bu məlumatlar Amerika-Azərbaycan ticarətinin keçənilki rəsmi statistikasının içindədir.

Qaynağa əsasən, Azərbaycan təyyarələr, kosmik texnologiya alıb. Diqqətçəkəndir ki, 2017-ci ildə ixracatın bu maddəsi sadəcə olmayıb. Bakı ABŞ-dan, habelə 31 milyon dollar məbləğində mülki təyyarələr və onlar üçün komplektləyicilər alıb. Politoloq, amerikaşünas Suren Sarkisyanın fikrincə, göstərilən məhsul formal olaraq mülki təyinatlı olsa da, istisna etmək olmaz ki, Bakı gələcəkdə ikitəyinatlı texnologiyalar almağa başlayacaq. Örnək üçün uzağa getmək lazım deyil - Azərbaycan ötən il mülki "Bell-412" helikopterləri alıb və bunları hərbiləşdirib.

ABŞ Azərbaycana silah və hərbi texnika satmadığı üçün Bakı belə fəndlərə əl atır. ABŞ-da münaqişə edən ölkələrə silah tədarük etməyə, o cümlədən müəssisədaxili və qanunvericilik xarakterli bir sıra maneələr var. Sərkisyan "Sputnik Armeniya"ya müsahibəsində qeyd edib: "Münaqişə edən ölkələrə silah tədarükünü yasaqlayan bir sıra hüquqi normalar var. Amma ABŞ yenə də silah satmağa başlasa, bunu balanslı şəkildə edəcək. ABŞ-ın Bakıya hərbi yardım göstərməyi qadağan edən 907-ci Düzəliş qabakı kimi qüvvədədir".

Söz düşmüşkən, Donald Trampın milli təhlükəsizlik üzrə müşaviri Con Bolton hələ keçən ilin oktyabrında bildirib ki, ABŞ prezidenti Azərbaycana dövlət səviyyəsində Amerikanın yardım göstərməyini məhdudlaşdıran "Azadlığa Dəstək Aktı"na 907-ci Düzəlişin təsirini dayandırmaq üçün öz səlahiyyətlərindən istifadə edə bilər. Ekspertlərin çoxu o zaman bu bəyanatı Bakıya silah satışı üçün Vaşinqtonun əl-qolunu açmaq cəhdi kimi dəyərləndirib. Sarkisyanın sözlərinə görə, ABŞ bütünlükdə son illərdə Kosmosun mənimsənilməsində Bakının əsas tərəfdaşına çevrilir. Azərbaycan ABŞ və Fransa ilə birlikdə Kosmos sahəsində bir sıra layihələr gerçəkləşdirir. Bakı son illərdə orbitə bir neçə peyk buraxıb. Sarkisyan ehtimal edir ki, bu peyklər gərəkli anda Ermənistana qarşı istifadə olunacaq. Rəsmi İrəvan bu şəraitdə ABŞ və Azərbaycanın aviasiya və Kosmos sahəsində işbirliyinə praktik mane ola bilməz. Ermənistan dövlətinin bunun üçün resurs və imkanları son dərəcə azdır. Lakin alınan malların ikili təyinatı təsdiqlənəcəksə, ABŞ-dakı erməni lobbiçilik strukturları buna mane olmaq üçün müəyyən iş görə bilər". Qeyd edilən yazıda böyük narahatlığa rəğmən, aydındır ki, İrəvan Bakı və Vaşinqton arasında hərbi, kosmik əməkdaşlığın inkişafına hansısa formada maneə yaratmaq iqtidarında deyil.

Hazırda Azərbaycan Kosmosda olan peyklərindən kommerisya məqsədilə istifadə edir. İndi orbitdə "Azerspace-1", "Azersky", "Azerspace-2" adlana üç peykimiz mövcuddur. "Azerspace-1" ötən 6 il ərzində 90 milyon dollar gəlir gətirib. Bu peykin 30-dan çox ölkədə daimi müştərisi var. Peyk regionda dövlət və özəl qurumlara şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbatı ödəmək üçün yüksək texniki imkanlar yaradır. "Azerspace-2" peyki də artıq kommersiya fəaliyyətinə başlayıb. Dəyəri 190 milyon dollar olan bu peykin ölkə iqtisadiyyatına 400 milyon dollar gəlir gətirəcəyi nəzərdə tutulur. "Azersky" isə Yer səthinin məsafədən müşahidəsi baxımından Azərbaycana böyük imkanlar qazandırır. Bütün bunlar Azərbaycanın dünya siyasətində kosmik uğurlarla nüfuzunun daha da artırılmasından xəbər verir. Elə Ermənistanı narahat edən əsas məqamlardan biri də məhz budur.

***Nahid SALAYEV***

# Ermənistan müxalifəti həmsədrlərin son bəyanatını Paşinyana qarşı ittiham aktına çevirdi - "Şillə"...

**ATƏT-in Minsk Qrupu həmsədrlərinin son bəyanatı Ermənistanı sözün əsl mənasında silkələyib. Onların ifadə etdiyi rəsmi mövqe, demək olar ki, məsuliyyətdən yayınmağa və həmsədrlərin bəyanatının əsl mahiyyətini gizlətməyə yönəlib.**



*"Ermənistan müxalifətinin ritorikasından hiss edilir ki, onlar Paşinyana danışıqlara getməyə mane olacaqlar"*

***Elşən Mustafayev:** "Ermənistan XİN-in bəyanata çox da sərt münasibət bildirməməsi, onun özlərinin xeyrinə olduğuna dair fikir yaratmağa cəhd etməsi Paşinyanın həmsədrlərin ilkin şərtlərini qəbul etdiyi anlamına gəlir"*

Buna baxmayaraq, artıq erməni siyasi elitası məsələnin mahiyyətini tam dərk etdiyi üçün, son bəyanatı Paşinyanın sifətinə vurulan şillə kimi xarakterizə edir. Müxalifətdə olan Respublika Partiyasının spikeri Eduard Şarmazanov sosial şəbəkələdəki hesabında fikirlərini aşağıdakı kimi ifadə edib: "Həmsədrlərin son bəyantını oxudum və aşağıdakı nəticəyə gəldim;

- Bu faktiki olaraq, Ermənistan hakimiyyətinin sifətinə şillə vurmaq və ya onlara sarı kart (xəbərdarlıq) göstərmək anlamına gəlir.

- Aprel müharibəsindən sonra həmsədrlər "Artsax"ın da tərəf kimi danışıqlar prosesində iştirakının mümkünülüyünü deyirdilərsə, indi tam bunun əksini söyləyirlər. Paşinyana bundan böyük zərbə ola bilməz.

- Əldə olunan bu nəticə bizim yeni hakimiyyətin populist və yarıtmaz siyasətinin nəticəsidir.

- Etiraf etməliyik ki, son dövrlər aparılan danışıqlar prosesində bizim mövqeyimiz tamamilə zifləyib".

Göründüyü kimi, Ermənistan iqtidarı həmsədrlərin bəynatını nə qədər öz mənafeyinə uyğun şəkildə yozmağa çalışsa da, həmin ölkənin müxalifəti bunu Paşinyanın populist siyasətinin iflası kimi dəyərləndirir, hətta onun üzünə vurulan şillə kimi qiymətləndirir. Erməni müxalifətinin bu mövqeyi nə ilə izah oluna bilər?

**Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev qəzetimizə bildirdi ki, həmsədrlərin son bəyanatında konkretlik var:** "Biz haqlı olaraq həmsədrləri ümumi məzmunlu bəynatlar verməndə təqsirləndiririidk. O tip bəynatlarda ümumi məna ifadə olunurdu və heç kim həmin iradları öz üzərinə götürmürdü. İndiki bəynatda isə konkret istiqamətlər göstərilir. Ən əsası formatın əvvəlki qaydada qalcağı və işğal edilmiş ərazilərin geri qaytarılmasının vacibliyi açıq mətnlə vurğulanır. Ermənistan baş naziri Brüseldə olanda dialoqdan danışırdı, burda isə həmsədrlər tərəfləri rəsmi danışığa çağırırlar. Ermənistanın rəsmi təbliğat maşını həmin bəynatdakı əsas müddəaları Azərbaycanın üstünə istiqamətləndirməyə çalışsalar da, bu , mümkün deyil. Çünki Azərbaycan heç vaxt danışıqlardan yayınmır. Hər zaman substansiv danışıqların vacibliyini vurğulayır. Bəyanatda xalqların öz müqədərətainın həllinin ərazi bütövlüyü çərçivəsində həllini tapacağı qeyd edilir. Paşinyan bu müddəaların heç birini qəbul etmirdi. Bu doğrudan da ona verilən xəbərdarlıq siqnalıdır. Ermənistan müxalifəti vəziyyəti düzügün təhlil edib. Onlar həmsədrlərin bəynatından əvvəl də deyirdilər ki, Paşinyanın danışıqlara getməkdən başqa çarəsi qalmayıb".

Ekspertin sözlərinə görə, yaranmış vəziyyət doğrudan da Paşinyanın hakimiyyətə gələndən sonra apardığı populist siyasətinin nəticəsi kimi ortaya çıxıb: "Münaqişənin həllində bu düsturdan kənara çıxmaq olmaz. Ermənistan XİN-in bəyanata çox da sərt münasibət bildirməməsi, onun özlərinin xeyrinə olduğuna dair fikir yaratmağa cəhd etməsi Paşinyanın həmsədrlərin ilkin şərtlərini qəbul etdiyi anlamına gəlir. Artıq ortaya konkret seçim qoyulub. Paşinyan ya sülh yolunu seçib, həmsədrlərlə razılaşaraq danışıqlara getməlidir, ya da qarşısında Azərbaycan Ordusunu görməlidir. Ermənistan müxalifətinin ritorikasından hiss edilir ki, onlar Paşinyana danışıqlara getməyə mane olacaqlar. Bu da Eürmənistanın daxilindəki gərginliyi daha da artıracaq".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# İlk Əliyev-Paşinyan görüşü ərəfəsində həmsədrlər təcavüzkar Ermənistanı "tərksilah" etdilər...



**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın mövqeyinin beynəlxalq miqyasda tam dəstəklənməsini ATƏT-in Minsk Qrupunun həmsədrlərinin son bəyanatı da açıq şəkildə nümayiş etdirdi. Ermənistanı isterik vəziyyətə salan bu bəyanat düşmən ölkədə çox ciddi diplomatik məğlubiyyət, Azərbaycanın növbəti qələbəsi qismində təqdim edilir.**

Xatırladaq ki, Minsk Qrupunun həmsədrləri Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında baş tutacaq ilk rəsmi danışıqlar barədə birgə bəyanatla çıxış edib. Bəyanatda Ermənistanın indiki hakimiyyətinin bir ilə yaxındır danışıqlar prosesinin formatına dair irəli sürdüyü tezisləri alt-üst edilir. Eyni zamanda, İrəvanda geniş vüsət almış "bir qarış da olsun torpaq qaytarmamaq" çağırışlarına cavab olaraq təsdiq edilir ki, zəbt edilmiş ərazilər azad olunmalıdır. Həmsədrlər tərəfləri mövcud vəziyyətdə dəyişiklik yarada biləcək açıqlamalardan və hərəkətlərdən, gələcək danışıqlar üçün şərtlər irəli sürməkdən və digər tərəfin razılığı olmadan formata dəyişikliklər tələb etməkdən çəkinməyə çağırır.

Aydın görünür ki, bu çağırışların əsas hissəsi məhz erməni tərəfinə yönəlib. Həmsədrlər aydın şəkildə erməni tərəfinə mesaj verir ki, danışıqlar formatını dəyişdirmək cəhdləri, yəni zəbt edilmiş ərazilərdə yaradılan separtçı rejimin Nikol Paşinyanın israr etdiyi kimi danışıqlarda iştirakı baş tutmayacaq. Eyni zamanda o da diqqətə çatdırılır ki, Ermənistan rəhbərliyi münaqişənin nizamlanmasının mümkün yolları barədə danışanda Dağlıq Qarabağın öz müqəddəratını təyin etməsini, yaxud müstəqilliyinin tanınmasını şərt kimi irəli sürə bilməz. Belə ki, həmsədrlər danışıqların təməli kimi Helsinki Yekun Aktına istinad edirlər. Helsinki Yekun Aktına görə isə, xalqların öz müqəddəratını təyin etməsi ərazi bütövlüyünə zidd ola bilməz.

Bütün bunların nəticəsidir ki, Ermənistanda Paşinyanın opponentləri həmsədrlərin bəyanatını İrəvanın danışıqlarda mövqelərinin zəifləməsinin göstəricisi və indiki hakimiyyətin buraxdığı diplomatik səhvlərin nəticəsi kimi qəbul edir. Məsələn, Respublika Partiyasının sözçüsü Eduard Şarmazanov hesab edir ki, bu bəyanat Paşinyanın hakimiyyətinə dəyən sillədir və ona göstərilmiş sarı kartdır. Çünki həmsədrlər danışıqlar formatının dəyişdirilməsini qəbuledilməz adlandırmaqla Paşinyana tam əks mövqe ortaya qoyur: "Həmsədrlər ilk dəfə olaraq Ermənistan rəhbərliyi üçün bir sillə və ya sarı kart hesab edilə biləcək bəyanat verdilər". Şarmazanovun sözlərinə görə, bu, Ermənistanın Dağlıq Qarabağ üzrə danışıqlar prosesində zəiflədiyini sübut edir: "Minsk Qrupunun həmsədrlərinin bəyanatını oxudum. Həmsədrlər ilk dəfə olaraq Ermənistan rəhbərliyi üçün bir sillə və ya sarı kart hesab edilə biləcək bəyanat verdilər. Həmsədrlər aprel döyüşlərindən sonra İrəvanda danışıqlar prosesinin son mərhələsində "DQR"in iştirak etməli olduğunu bəyan edirdilərsə, indi əksini iddia edərək Paşinyana əks zərbə vururlar. Bu, yeni hökumətimizin cahil və populist siyasətinin nəticəsidir. Aydındır ki, bizim mövqeyimiz danışıqlar prosesində zəifləyib".

Respublika Partiyasının sədr müavini Armen Aşotyan da məsələyə eyni prizmadan yanaşır. Onun sözlərinə görə, Minsk Qrupu həmsədrlərinin sonuncu bəyanatı çox diqqətəlayiqdir: "Ermənistanda hakimiyyət dəyişikliyindən sonra bu, hazırkı danışıqlar prosesindəki vəziyyətlə bağlı ilk geniş, proqramlı və nisbətən birbaşa sözdür. Daha açıq desək, bunu tərəflərə ünvanlanmış dəqiq mesajlarla danışıqlar prosesinin saxlanması və hərbi əməliyyatların bərpasının qarşısını almaq cəhdi kimi qiymətləndirirəm. Nikol Paşinyanın tələskənliyi üzündən, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında öz səylərinə həddindən artıq inam nəticəsində təxminən bir il keçdikdən sonra, təəssüf ki, Vyana, Sankt-Peterburq və Cenevrə razılaşmalarının həyata keçirilməsinin zəruriliyini qeyd etmədən başlanğıc nöqtəsinə qayıtmaq təhlükəmiz var".

Armen Aşotyan xatırladır ki, ATƏT-in Minsk Qrupu həmsədrləri, həmçinin Avropa İttifaqı rəsmiləri, o cümlədən Yohannes Han və Frederika Moqerini "DQR"in danışıqlar masasına qaytarılmasına dair Paşinyanın təşəbbüsünü alıqışlamır: "İlkin şərt olmadan nizamlama haqqında danışarkən, "DQR" cəlb edilmədən Ermənistan-Azərbaycan formatını nəzərdə tutublar". Eyni zamanda Aşotyan qeyd edib ki, qarşıda Prezident İlham Əliyevlə gözlənilən görüşdə Paşinyan dediyi sözləri, yəni "DQR"i danışıqlar masasına qaytarmağı yerinə yetirməyə cəhd etsə də iflasa uğrayacaq: "Belə vəziyyətdə Paşinyan ATƏT-in Minsk Qrupu həmsədrləri çərçivəsində Ermənistan ucbatından danışıqlar prosesinin fəallaşması və iflic edilməsi təsəvvürü yaratmamalıdır. Paşinyan ikinci ssenari üzrə hərəkət edərsə, Azərbaycanın mümkün hərbi əməliyyatları beynəlxalq aləmin bir hissəsində özünə haqq qazandıra biləcəyinə dair böyük təhlükə olacaq".

Bir daha xatırladaq ki, Paşinyanın təxribatçı "danışıqlar formatı" ideyası Avropada qəbul edilmir. Yohannes Han və Frederika Moqerini ilə yanaşı, bunu Avropa Komissiyasının sədri Jan Klod Yunker də xüsusi vurğulayır. O, konfliktin həlli üçün nəzərdə tutulan hazırkı formatın saxlanılmasının gərəkdiyini bildirib Onun fikrincə, ən yaxşısı indiki formatı saxlamaqdır və yenilik xatirinə yeni nəsə yaratmağa ehtiyac yoxdur. Bunlar Ermənistanın populist siyasətinin uğursuzluğunun növbəti nümunəsidir. Avropa rəsmilərinin, o cümlədən də həmsədrlərin açıqlaması çox aydın göstərir ki, danışıqların əsasını işğal olunmuş ərazilərin azad edilməsi və məcburi köçkünlərin geri qayıtması təşkil edir. Məhz bu mənada, rəsmi Bakı istər Avropa İttifaqı təmsilçilərinin, istərsə də Minsk Qrupu həmsədrlərinin indiki mövqeyini yüksək qiymətləndirir. Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva bu xüsusda vurğulayır: "Minsk Qrupu həmsədrlərinin açıqlaması Ermənistana verilən bir siqnaldır, biz bunu alqışlayırıq. Prezident İlham Əliyev Minsk Qrupu həmsədrlərini qəbul edərkən, ölkəmizin bu səpkidə mövqeyini həmsədrlərin diqqətinə çatdırıb. Münaqişənin həlli üzrə danışıqlar Ermənistan və Azərbaycan arasında aparılır. Danışıqların formatı dəyişilməz olaraq qalır. Ölkəmizin işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin danışıqlara cəlb edilməsi və formatın dəyişdirilməsi cəhdləri qəbuledilməzdir. Həmçinin, həmsədrlərin açıqlamasında münaqişənin həlli ilə əlaqədar atılmalı addımlar da qeyd olunur. Burada ilkin addımlardan biri kimi Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ətrafındakı ərazilərin işğaldan azad edilməsi və bu ərazilərdən zor gücünə qovulmuş məcburi köçkünlərin geri qayıtması nəzərdə tutulur".

Beləliklə, yaranmış vəziyyətdə aydın görünür ki, Ermənistanın siyasi rəhbərliyi çox çətin və ziddiyyətli vəziyyətə düşüb. Çünki Azərbaycan xarici siyasətdə o dərəcədə uğurludur ki, təkcə ABŞ və Avropa yox, hətta Ermənistanla eyni hərbi-iqtisadi blokda təmsil olunan dövlətlər belə onu müdafiə edir. Amerika və Avropa ölkələri Azərbaycanla əməkdaşlığa çox ciddi münasibət göstərirlər. Ermənistana münasibət isə fərqlidir və Paşinyanın Avropa İttifaqına səfəri çərçivəsində fiaskoya uğraması da bunu təsdiq edir. Bütün bunlar həm də Qarabağ münaqişəsinə yanamşmada özünü qabarıq büruzə verir. Qərb ölkələri, eləcə də Rusiya açıq bəyan edir ki, Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həllinin tapılması vacibdir. Bundan başqa, Paşinyana çox aydın mesaj verilir ki, ATƏT-in Minsk Qrupunun mövcud formatı çərçivəsindən kənarda hər hansı bir format ola bilməz. Həmçinin, Dağlıq Qarabağın separatçı rejiminin ayrıca bir subyekt olaraq erməni icmasının danışıqlar prosesinə cəlb edilməsi mümkünsüzdür və bu haqda ümumiyyətlə danışmaq lazım deyil. İrəvan artıq aydın başa düşür ki, Dağlıq Qarabağı danışıqlara cəlb etməklə bağlı tutduğu mövqe qeyri-realdır. Bu mövqeni nə Rusiya, nə də Qərb müdafiə edir. Rus ekspert Sergey Markedonov vurğulayır ki, bu fonda İrəvanın yanlış addımı həm cəbhədə vəziyyəti gərginləşdirə, həm də Ermənistan daxilində ziddiyyətə, qarşıdurmaya yol aça bilər: "Hər halda, format məsələsinin Ermənistanın öz daxilində ziddiyyətlərə yol açdığı aydın görünür. Paşinyanın mövqeyinə qarşı çıxanların olması da bunu göstərir. Belə vəziyyətdə Ermənistan üçün ən yaxşısı üzərinə düşən öhdəlikləri yerinə yetirmək - BMT qətnamələrinin tələblərinə əməl etmək, eyni zamanda danışıqlar prosesində münaqişənin ədalətli həlli istiqamətində adekvat addımlar atmaqdır. Əks təqdirdə Azərbaycan uzun müddət gözləməli olmayacaq".

Ümumiyyətlə, proseslərin gedişi çox aydın göstərir ki, Ermənistanın işğalçılıq siyasəti və onun nəticələri ilə bağlı məsuliyyətdən yayınması mümkün deyil. Yaranmış durumda isə Azərbaycanın problemi sülh yolu ilə həll etməyə sadiq qalması Ermənistan üçün bir şansdır və işğalçı ölkə bunu qiymətləndirməyi bacarmalıdır. Əks təqdirdə Azərbaycanın istəyinə güc yolu ilə nail olması elə də çətin olmayacaq. Bunu yaxşı bilən İrəvan, ekspertlərin fikrincə, özünü xilas etmək üçün beynəlxalq və regional reallığı da düzgün dərk edərək müvafiq nəticə çıxarmalıdır. Əks halda Ermənistanın iflası və özünütəcridi daha da dərinləşəcək, siyasi, iqtisadi, sosial, demoqrafik, diplomatik böhran davam edəcək. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmayana, qonşu dövlətlərlə normal, beynəlxalq qanunlar çərçivəsində əlaqələr qurmayana qədər belə vəziyyət davam edəcək. Eyni zamanda, Ermənistanın konstruktivlikdən kənar təklifləri danışıqlar prosesində hansısa dəyişikliklərə də yol açmayacaq və dünya dövlətlərinin mövqeyi də bunu çox aydın şəkildə nümayiş etdirir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Tariximizin elə gizlinləri var ki, onların aşkarlanması, tədqiqata cəlb edilməsi çox mühümdür. Bu gizli sənədlər dünyanın müxtəlif ünlü arxivlərində məxfi qrif altında saxlandığı üçün Azərbaycan alimlərinin ora girişi çətindir. İndiyə qədər dünyanın bir sıra arxivləri açılıb və bu, alimlərə şərait yaradıb ki, tariximizlə bağlı elmə məlum olmayan sirləri açıb təqdim etsinlər.**

***"Vatikanın gizli arxivləri açıldıqdan sonra Azərbaycan alimlərinin orada tədqiqat aparmasına şərait yaradılmalıdır"***

# Roma Papasının II Dünya müharibəsinə aid arxivlərini açırlar - Azərbaycan tarixçiləri üçün maraqlı araşdırma arenası...

Azərbaycan tarixinə aid hələ aşkarlanmamış məlumatların, sənədlərin bir çoxu, xüsusən də II Dünya müharibəsinə aid faktların Vatikanda saxlandığı məlumdur.

Yayılan məlumata görə, Roma Papası Fransisk Papa XII Piyin dövründən etibarən Vatikanın gizli arxivlərini açacağını bildirib.

Xarici mətbuatın verdiyi bilgiyə görə, yəhudilərin çoxu Papa XII Piyin Holokosta göz yumduğunu iddia edir, buna görə də Papa Fransisk Vatikanın gizli məlumatlarını açıqlamağa qərar verib. Onu da vurğulayaq ki, Papa Fransisk bildirib ki, arxivlər 2020-ci il martın 2-də açılacaq.

Məlumat üçün bildirək ki, XII Piy 1939-cu ildən 1958-ci ilə qədər Papa olub.

Bir məqamı da yadınıza salaq ki, Vatikan arxivlərinin açılacağı ilə bağlı bir neçə dəfə məlumatlar yayılıb.

Bir neçə il əvvəl isə AzərTAc xarici mətbuata istinadən məlumat yaydı ki, Vatikan öz məxfi arxivinin iki milyondan çox sənədini dərc etməyə hazırlaşır. O zaman bildirilirdi ki, sənədlərdə hərbi əsirlər və Avropada müharibə vaxtı itkin düşənlər barədə məlumat verilir. Sənədlərdən əlavə, 10 milyona yaxın məktubun da dərc olunacağı qeyd edilirdi. Vurğulanırdı ki, bunlar itkin düşənlərin axtarışına kömək etmək xahişilə Roma Papasına ünvanlanmış müraciət məktublarıdır. Sənədlər 1939-1947-ci illərə aiddir. Vatikanın bir neçə il əvvəl yaydığı bəyanatda deyilirdi ki, Papa XII Piy faşizmin törətdiyi cinayətlərin üstündən sükutla keçməkdə təqsirləndirilib.

Piyin tənqidçilərinin fikrincə, o, İtaliya ərazisində yəhudilərə qarşı cinayətlərə rəvac verib və Piy onların xilası üçün heç nə etməyib.

Qeyd edilənə görə, Vatikanın gizli Arxivlərində (Archivum Secretum Apostolicum Vaticanum) olduqca mühüm sənədlər saxlanır. Bu arxiv Vatikanda olan Müqəddəs Məqam tərəfindən elan edilən və atılan bütün addımların saxlandığı mərkəzi anbardır. Qanunla, vəzifədə olan Papanın yerinə gələcək Papa Kardinallar Məclisi tərəfindən seçilənə və ya vəzifədəki Papa ölənə, ya da istefa verənə qədər arxivin sahibidir. Vatikan Gizli Arxivlərində dövlət sənədləri, yazışmalar, papalığın və kilsənin dərc etdiyi kitablar və əsrlər boyunca yığılmış bir çox digər sənədlər var. XVII əsrdə Papa V Pavelin təlimatları ilə alimlərə Gizli Arxivə çox məhdud daxil olma icazəsi verilirdi. Xaricilərə isə arxivə daxil olmaq tamamilə qadağan idi. Ancaq 1881-ci ildə Vatikan Kitabxanası yaradıldıqda, Papa XIII Leo arxivin qapılarını araşdırmaçıların üzünə açdı. İndi də hər il bəzən mindən çox araşdırmaçı arxivlərə daxil olur.

Vatikan Gizli Arxivlərinin adındakı "gizli" sözü indiki vaxtda fəaliyyəti ilə uyğun gəlmir. Gizli sözünün buradakı mənası arxivin Müqəddəs Məqamın fərdi mülkiyyəti olduğu və ona yardımçı mövqedə olan "Roma Curi"aya aid olan "xüsusi" mənasını verdiyini göstərir. Eyni zamanda buradakı gizli sözü "gizli xidmətçilər", "gizli daşıyıcı" və "gizli işarələr" mənalarını verir.

Vatikan Gizli Arxivləri rəflərinin uzunluğunun 84 km olduğu bildirilir və 35.000 kataloqa malikdir. Hər bir otağa aid məlumat oradan kənara çıxarıla bilməz, tam və ya hissə-hissə nəşri də qadağandır. Arxivlərin qorunması məqsədilə xüsusi fotostudiya fəaliyyət göstərir. Arxivdəki ən qədim sənədin tarixi səkkizinci əsrin sonuna qədər uzanır. Yerdəyişmə və siyasi qiyamlar təxminən III Innocentiusdan (xristian aləminin ən böyük qanun hazırlayan şəxsi) əvvəlki dövrün arxivinin yox olmasına baxmayaraq, 1198-ci ildən etibarən toplanan böyük arxivlərə sahibdir. O tarixlərdəki arxiv sənədləri arasında İngiltərə kralı VIII Henrinin evliliyin ləğvi tələbi və Mikelancelodan gələn məktublar var.

Bilirik ki, II Dünya müharibəsində Azərbaycan xalqı da böyük bəlalar çəkib. Müharibə dövründə azərbaycanlılarla bağlı bir sıra mühüm faktların, o cümlədən də Hitlerlə ermənilərin birləşərək azərbaycanlılara qarşı törətdikləri əməllərin yer aldığı sənədlərin, o cümlədən Hitlerlə ermənilərin gizli sözvdələşmələrinin yer aldığı və indiyə qədər gizli saxlandığı Vatikan arxivlərinin açılması mühümdür. Bu arxivlərdə Azərbaycan alimlərinin iştirakı, təbii ki, vacibdir. Alimlərimizin Vatikan arxivlərində işləməsi xalqımızla bağlı tarixi faktların üzə çıxarılması baxımından çox əhəmiyyətlidir.

***"Mühüm məsələlərdən biri iki dəfə Sovet İttifaqı Qəhrəmanı adı alan Həzi Aslanovun hansı şəraitdə qətlə yetirilməsi məsələsidir ki, biz bu haqda dəqiq məlumatı həmin arxivdən əldə edə bilərik"***


Il Messaggero.it

MENU CERCA

**Papa Francesco apre gli archivi di Pio XII nel 2020: «Non abbiamo paura della Storia»**

VATICANO

*Lunedì 4 Marzo 2019 di Franca Giansoldati*

CITTA' DEL VATICANO – «Ho deciso che l'apertura degli Archivi Vaticani per il Pontificato di Pio XII avverrà il 2 marzo 2020, a un anno esatto di distanza dall'ottantesimo anniversario dell'elezione al Soglio di Pietro di Eugenio Pacelli». Papa Francesco lo ha annunciato durante l'udienza ai membri dell'Archivio Segreto vaticano. Già nel 2006 Papa Benedetto XVI, aveva dato ordine di iniziare ad analizzare e catalogare le carte relative al pontificato pacelliano, in vista della beatificazione (anche se manca ancora il miracolo necessario), soprattutto per fugare una volta per tutte la leggenda nera che addita Pio XII come il pontefice che ha negato l'Olocausto e non ha mosso un dito per salvare gli ebrei dalla razzia del Ghetto. Una tesi che si è fatta largo solo negli anni

202

***"Tarixi şəxsiyyətlərimizin bir çoxu İİ Dünya Müharibəsi dövründə Hitler və ermənilərin birgə işlədiyi cinayətlər nəticəsində müəmmalı şəkildə qətlə yetirilib"***

Tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ümumiyyətlə, Vatikanın gizli arxivində Azərbaycanla bağlı bir sıra mühüm sənədlər var ki, onların bir qismi II Dünya müharibəsindən əvvələ təsadüf edir. F.Ələkbərli hesab edir ki, Vatikanın gizli arxivi açılarkən burada Azərbaycan alimlərinin iştirakı mütləq nəzərə alınmalıdır. Vatikan arxivinin dünyanın ən sirli arxivlərindən biri olduğunu xatırladan F.Ələkbərlinin sözlərinə görə, burada elə faktlar var ki, onların üzə çıxması faşizmə xidmət edən ermənilərin də iç üzünü açacaq. "Şübhəsiz ki, Vatikanın gizli arxivləri açıldıqdan sonra Azərbaycan alimlərinin orada tədqiqat aparmasına şərait yaradılmalıdır. Bu arxivin açılması dünyanın özü üçün sirr olan bir sıra məxfi sənədlərin üzə çıxmasına səbəb olacaq. Bilirsiz, istər II Dünya müharibəsi dövründə, istərsə də ondan öncə baş verənlərlə bağlı əlimizdə çox az məlumat var. Əlimizdə olan məlumatların daha da dolğunlaşdırılmasına ehtiyac var. Burada ən mühüm məsələlərdən biri iki dəfə Sovet İttifaqı Qəhrəmanı adı alan Həzi Aslanovun hansı şəraitdə qətlə yetirilməsi məsələsidir ki, biz bu haqda dəqiq məlumatı həmin arxivdən əldə edə bilərik. Digər məsələ faşist Almaniyası ilə ermənilərin gizli sövdələşmələri, burada azərbaycanlılarla bağlı həyata keçirilən cinayətlərdir ki, o haqda daha səhih məlumatlar əldə etmək üçün Vatikan arxivlərində işləməliyik. Bəzən o dövrdə azərbaycanlıların haqsız yerə ittiham edilməsi məsələsi də var ki, onlara da aydınlıq gətirməliyik. Bu baxımdan da, Azərbaycan alimlərinin Vatikan arxivlərində işə cəlb edilməsi çox vacibdir. Yeri gəlmişkən, bizə qarşı bir sıra hadisələr saxtalaşdırılıb. Bu səbəbdən də bizim bəzi insalarımız tariximizlə bağlı qiymətləndirmə apararkən məhz o saxta tarix üzərindən qiymətləndirmə aparır. Bizimlə ələqədar I, yaxud II Dünya Müharibəsi dövründə baş verən bir sıra hadisələrin tarixi saxtalaşdırılıb. Ona görə də hesab edirəm ki, Azərbaycan alimləri Vatikan arxivlərində geniş tədqiqata başlasalar, bizə qarşı baş verən tarixi saxtalaşdırmalar ifşa olunar. Bu bizim keçmişimiz, bugünümüz və gələcəyimizdən ötrü bir sıra qaranlıq məsələlərin açılması üçün çox faydalıdır. Vaxtilə Azərbaycanın bir sıra tarixi şəxsiyyətləri haqqında həqiqətə uyğun olmayan fikirlər formalaşdırılıb. Bizim tarixi şəxsiyyətlərimizin bir çoxu II Dünya Müharibəsi dövründə Hitler və ermənilərin birgə işlətdikləri cinayətlər nəticəsində müəmmalı şəkildə qətlə yetirilib. Bu barədə sənədlər Vatikan arxivlərində saxlanır. Vatikan arxivlərində Azərbaycanla bağlı çox gizlinlər saxlanır və o gizlinlərin aşkara çıxarılması bizə hava-su kimi lazımdır"-deyə F.Ələkbərli bildirdi.

Alimin sözlərinə görə, elə sənədlər var ki, həmin sənədləri əldə etməklə biz faşizmə xidmət edən və Hitlerin əmrlərini icra edən erməni faşistlərini ifşa edə bilərik.

***İradə SARIYEVA***

# Bakı bazarlarında "su qiymətinə" ət satılır, Qida... Agentliyindən açıqlama ala bilmədik...

## Eyyub Hüseynov: "Ölmüş heyvan ətinin satılması ilə bağlı informasiyaların əsası var"

**Ölkədə qida təhlükəsizliyinin təmin edilməsi vacib məsələlərdən biridir. Sözügedən məsələ zaman-zaman müzakirə mövzusu olub. Bu arada sosial şəbəkələrdə yayılan məlumata görə, hər səhər, təxminən saat 5.00-dan 8.00 qədər Bazarda ölü ətinin kilosunu 1 manatdan satırlar.**



*"Murdar olmuş heyvanların ətinin satılması ciddi xəstəliklərin yayılmasına səbəb ola bilər"*

İddialara görə, restoran və dönərxana sahibləri bu qara nöqtənin əsas müştərilərindəndir.

O da məlimdur ki, bənzər məlumatlar dəfələrlə gündəmdə olub və bu bir sıra məsələlərdən qaynaqlandığı üçün müəyyən şübhələrə yol açır. Məsələ ondadır ki, bəzən bazarlarda satılan kolbasanın qiyməti, ətin qiymətindən ucuz olur. Məsələn, bu gün bazarlarda dana ətinin bir kilosunun qiyməti 10 manatdan aşağı deyil. Ancaq görürsən ki, bazarda kilosu 5-6 manata olan kolbasa satılır. Belə olan halda həmin kolbasanın hazırlanmasında istifadə olunan ətin mənşəyi qaranlıq görünür. Çünki mümkün olan iş deyil ki, ət baha olsun, amma kolbasa ucuz. Düzdür, kolbasanın tərkibi təkcə ətdən ibarət olmur. Ancaq bu amil belə, kolbasanın ucuz satılmasına əsas vermir. Digər tərəfdən, ucuz ətin realizə olunduğu yerlərdən biri də dönərxanalar hesab olunur. Elə dönərxanalar var ki, orada satılan dönərlərin qiyməti digərləri ilə müqayisədə çox ucuz olur. Bu da istər-istəməz orada istifadə olunan ətin mənşəyi ilə bağlı şübhə yaradır. Nəzərə almaq lazımdır ki, mənşəyi bəlli olmayan ət məhsullarının satışı böyük təhlükədir. Xüsusən də ölmüş heyvanların ətinin satılması. Bu kütləvi zəhərlənmələrə və digər qorxunc fəsadlara səbəb ola bilər.

Məlumatın nə dərəcədə doğru olub-olmadığını öyrənmək üçün Qida Təhlükəsizliyi Agentliyinə sorğu ilə müraciət etdik. Təəssüflər olsun ki, gün ərzində sorğumuz qurum tərəfindən cavablandırılmadı. Həmçinin, qurumun mətbuat xidmətinin rəhbəri Aysel Fərziyeva ilə əlaqə saxladıq. O isə bununla bağlı qurumun rəsmi açıqlamasının olmadığını dedi. Rəsmi açıqlamanın olacağı halda, məlumat verəcəklərini dedi.

**Məsələ ilə əlaqədar Azad İstehlakçılar Birliyinin rəhbəri Eyyub Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu kimi məlumatların müəyyən əsası var:** "İllər öncə monitorinq aparmışam. Gecə saat üçdə gedib görmüşəm ki, leş əti satılır. Bu illlər öncə olub. Dəfələrlə biz sözügedən məsələ ilə bağlı müvafiq orqanlar qarşısında məsələ qaldırmışıq. Bu sahədə ən uğurlu işi Daxili İşlər Nazirliyi aparıb. Ancaq digər qurumların fəaliyyəti qənaətbəxş olmayıb. Lakin bütün işlər aparılsa da leş mafiyasının qarşısını almaq mümkün olmayıb. Bir dəfə Kənd Təsərrüfatı Nazirliyinin idarə rəisi efirdə bəyan etdi ki, hər cür əti satmaq olar. Ancaq bu o demək deyil ki, hər şeyi satmaq olar. Xüsusən də ölmüş heyvanın ətini satmaq yolverilməzdir. Murdar olmuş heyvanların ətinin satılması ciddi xəstəliklərin yayılmasına səbəb ola bilər. Hesab edirəm ki, ölmüş heyvan ətinin satılması ilə bağlı informasiyaların əsası var. Kəndlərdə ölmüş heyvanlarla bağlı leşyığanlara zəng vururlar və onlar da gəlib bu işi görürlər. Yəni bu proses gedir. Leş ətinin hara gətirildiyi bilinmir. Kənd Təsərrüfatının baytarlıq idarələri belə hallar aşkar edəndə bu işlə məşğul olanları cərimələyir. Daxili İşlər Nazirliyi isə belə faktlar aşkar edəndə cinayət işi açır, ekspertiza aparır. Çox təəssüflər olsun ki, belə ətlərin son sifarişçisi tapılmır. Ona görə də bu kimi informasiyaların əsası var və bununla bağlı tədbirlər görülməlidir. Biz sözügedən məsələlərlə bağlı Qida Təhlükəsizliyi Agentliyi ilə əməkdaşlıq etmək istəsək də onlar bizimlə əməkdaşlıq etmək istəmir. Onlar AİB-i savadsızlıqda günahlandırırlar. Əslində isə belə məsələlərdə ictimai təşkilatlarla əməkdaşlıq olmalıdır".

***Vidadi ORDAHALLI***

# 4 manatdan başlayaraq 2500 manatadək qiymətlə balıq kürüsü...Belə də "ikra" olar?

## Rasif Bağırov: "Süni kürü balıq yağı, süni rəng və zülallardan, əsasən kimyəvi maddələrdən hazırlanır"

**XVII əsrədək qara kürü kasıb kəndli yeməyi sayılırdı. Lakin sonralar əvvəlcə rus çarlarının, ardınca isə Avropa aristokratlarının süfrəsinə yol tapan qara kürü çoxdandır dünyanın ən ləziz və delikates ərzaq növü hesab edilir. Təmiz qara və qırmızı kürünün qiyməti çox bahadır. Əsl kürünün bir kiloqramının qiyməti 1000 manatdan bahadır.**



*"Marketlərdə ucuz qiymətə satılan qara və qırmızı kürülər təmiz məhsul deyil, süni kürülərdir"*

Amma marketlərdə konservləşdirilmiş şəkildə satılan, xarici ölkələrdə istehsal olunmuş və qiyməti xeyli ucuz "kürü"lər də istehlakçılara təklif edilir. Həmçinin, restoran və şadlıq evlərinin masasının üzərində də qara və qırmızı kürü tapmaq olar. Bunlar süni kürülərdir. Nə qədər zərərli olsa da, ölkədə süni kürünü öz qida rasionuna əlavə edən insanlar kifayət qədər çoxdur.

Bu gün marketlərdə müxtəlif qiymətə kürü satışına rast gəlmək olar. Apardığımız araşdırma zamanı məlum oldu ki, marketlərdə balıq kürüsünün 100 qramının satış qiyməti 4 manatla 190 manat arasında dəyişir. Ancaq əsl kürünün bir kiloqramının qiyməti 1200-2500 manat arasında dəyişir. Halbuki bir çox restoranlarda və şadlıq evlərində hələ də süfrəyə balıq kürüsü qoyulur. İnsanlar isə toylarda masaya düzülən kürülərin süni olduğunu bilərək ona yaxın durmağa ehtiyat edirlər.

Ekspertlər iddia edir ki, marketlərdə ucuz qiymətə satışa çıxarılan kürülər süni şəkildə hazırlanır.

Qeyd edək ki, süni kürünün satışı qadağan edilməsə də, onun üzərinə bu məhsulun sənaye üsulu ilə hazırlandığının yazılması mütləqdir. Amma bəzi işbazlar bunu yazmayaraq istehlakçıları aldatmağa çalışırlar.

**Məsələyə münasibət bildirən tanınmış həkim Rasif Bağırovun sözlərinə görə, Azərbaycanda süni kürü balıq yağından və kimyəvi maddələrdən hazırlanır:** "Süni kürü balıq yağı, süni rəng və zülallardan, əsasən kimyəvi maddələrdən hazırlanır. Yəni təbii orqanizmdən gələn maddə olmadığına görə, digər süni maddələr kimi, süni kürülərin də orqanizmə mənfi təsiri var. Əsas mənfi təsiri ondan ibarətdir ki, həmin kimyəvi maddələrin tərkibi oksidant maddələrlə zəngin olur. Oksidant maddələr də orqanizmdə yetərincə antioksidant maddələrin olmasını tələb edir. Antioksidant maddə də çatışmayanda orqanizmdə kanserogen zədələnmələr artır. Ona görə də süni kürülərdən istifadə olunması məsləhət deyil. Ölkəyə gələn xarici qonaqlar da bəzən süni kürünü təbii adla alırlar. Elə bilirlər ki, bu təbiidir. Əslində isə bu belə deyil. Süni kürünün təbii kürü ilə heç bir əlaqəsi yoxdur. Hazırlanan süni kürü müvafiq standarta uyğun olaraq hazırlanır. Tərkibi təmiz kürüdən olan qabın üzərində nərə balığı şəkli olur. Süni yolla hazırlanan məhsul qablaşdırılarkən onun üzərində nərə balığı deyil, dəniz şəkli olur və qabın alt hissəsində "süni yolla hazırlanan kürü" sözü qeyd olunur. Qara bazarda isə saxta yolla hazırlanan kürü mövcuddur. Bu məhsul bəzi işbazlar tərəfindən xüsusi sexlərdə kustar üsulla hazırlanaraq ucuz qiymətə satışa verilir ".

R.Bağırov onu da əlavə etdi ki, marketdə süni kürülər satılması faktdır. Təəssüf ki, satışa çıxarılan süni kürülərin qiyməti elə də baha olmur. Marketlərdə kürülərin satış qiyməti təxminən 5-150 manat arasında dəyişir. Təbii ki, o qiymətə satılan kürü təmiz deyil: "Rusiyadan Azərbaycana süni kürülər idxal olunur. Təəssüf ki, həmin kürülərin qablarında nərə balığının şəkli var. Xaricidən ölkəmizə gələn insanlar da nərə balığının şəklinə aldanıb, həmin süni kürüləri alırlar".

***Günel CƏLİLOVA***

**Son illər Azərbaycanda turizmin inkişafı göz önündədir. Heç şübhəsiz turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Bu gün Azərbaycan dövləti turizm sahəsinin inkişafını iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamət elan edib. Azərbaycan turizminin inkişafı beynəlxalq agentliklərin hesabatlarında da qeyd olunur.**

# Azərbaycan turizmin səviyyəsinə görə Avropada 7-ci yeri tutdu



*"Beynəlxalq təşkilatların tərtib etdiyi hesabatlarda ölkəmizin ilk 10-luqda qərarlaşması turizm sektorunun inkişafı istiqamətində aparılan işlərlə bağlıdır"*

### *Ruslan Quliyev: "Azərbaycan turizminin uğur qazanacağı ilə bağlı yerli və beynəlxalq təşkilatların proqnozları artıq özünü doğruldur"*

Azərbaycan turizmin inkişafına görə Avropa ölkələri arasında 7-ci yeri tutub. Bununla bağlı reytinq cədvəlini Ümumdünya Turizm Təşkilatı (ÜTT) açıqlayıb. Qurum Azərbaycanda turizm sektorunun inkişaf dinamikasını 20% səviyyəsində qiymətləndirib. ÜTT Bakını ecazkar məkanlardan biri kimi təqdim edərək onu "Yeni Dubay"a bənzədib, neftlə zəngin olan ölkənin Avropa və Asiya arasında, o cümlədən Şərqdə sürətlə inkişaf edən haba çevrildiyini bəyan edib.

Qeyd edək ki, siyahıya liderliyi San-Morino edir. Növbəti yerlərdə Gürcüstan (2-ci), İsrail (3-cü), Türkiyə (4-cü), İslandiya (5-ci), Makedoniya (6-cı), eləcə də Moldova (8-ci), Bosniya və Herseqovina (9-cu) və Ermənistan (10-cu) qərarlaşıb.

**Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının prezidenti Ruslan Quliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, hazırda Azərbaycanda turizm sektoru sürətlə inkişaf etməkdədir.** Ölkəmiz artıq dünya turistləri üçün cəlbedici məkana çevrilib: "Azərbaycan turizm üçün hər baxımdan cəlbedici məkandır. Gözəl təbiət, misilsiz tarixi abidələr, fərqli mətbəx, qonaqpərvərlik, dövlət tərəfindən bu sahəyə ayrılan diqqət, sahibkarlara yaradılan şərait, viza sisteminin sadələşdirilməsi səyahət üçün ölkəmizə üz tutan turistlərin sayına təsir edir. Bununla yanaşı, turizm sahəsinin inkişafında, ümumi iqtisadi, texniki və sosial nailiyyətlərin birbaşa təsiri mövcuddur. Nəzərə aımaq lazımdır ki, son illər Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin daha da möhkəmlənməsi, ən nüfuzlu təşkilatlarda layiqincə təmsil olunması, ölkəmizin beynəlxalq arenada formalaşmış müsbət imici, Azərbaycanın dünyada sabitlik adası kimi xarakterizəsi, ölkəmizə marağın artmasına səbəb olur və turizm sahəsinin də inkişafına zəmin yaradır".

Həmsöhbətimiz onu da əlavə etdi ki, turizmin inkişafına görə Azərbaycanın Avropa ölkələri arasında 7-ci yerdə qərarlaşması yaxşı göstəricidir: "Beynəlxalq təşkilatların tərtib etdiyi hesabatlarda ölkəmizin ilk 10-luqda qərarlaşması turizm sektorunun inkişafı istiqamətində aparılan işlərlə bağlıdır.

**Qeyd edim ki, ölkəmizin bu sahədə uğur qazanacağı ilə bağlı yerli və beynəlxalq təşkilatların proqnozları artıq özünü doğruldur. Zənnimcə, yaxın müddət ərzində Azərbaycan turizmi daha da inkişaf edəcək".**

*Günel CƏLİLOVA*

---

**Tətillərdə, həftə sonlarında, xüsusən respublikamızın rayonlarına səfər edən insanları "hansı oteldə gecələməli"sualı düşündürür. Düzdür, bu gün bölgələrdə çoxlu sayda istirahət mərkəzləri, otellər olsa da insanların bir qismi cibinə uyğun məkanda istirahət etməyi düşünür. Bu səbəbdən də rayonlarda otel qiymətindən fərqli olaraq evlərdə qalmağa üstünlük verənlər az deyil.**

# Bölgələrdə otellərin ulduzlarının sayı nə qədər az olsa, turistlərin sayı o qədər çox olar...



*"Ulduzu az olan otellərin sayının artırılması həm turist axınının güclənməsinə səbəb olar, həm də ölkə iqtisadiyyatına gəlir gətirər"*

### *Elçin Rüstəmov: "Otel nə qədər ucuz və çox olsa, turist bir o qədər ölkədə çox qalar"*

Ancaq səyahət sevənlər və ya iş üçün rayona getməli olanlar təhlükəsizlik baxımından evlərdə deyil, məhz oteldə qalmağa üstünlük verir. Turistlər ulduzundan asılı olmayaraq, otellərdə gecələməyə daha çox üstünlük verirlər. Reallıq isə budur ki, sosial durumu yüksək olmayan insanlar beşulduzlu otellərə yaxın düşə bilmir, bələd olmadığı, tanımadığı evlərdə isə gecələməyi riskli hesab edir. Bunun üçün təbii ki, otellərin sayının və seçiminin çox olması zərurəti yaranır. Digər tərəfdən, mövcud otellərdə də yer tapmaq problemi var. Bu səbəbdən 2-3 ulduzlu otellərin sayının artırılması təklif olunur.

Bəllidir ki, bu gün paytaxt Bakı ilə yanaşı, bölgələrdə də 4-5 ulduzlu otellərin sayı çoxluq təşkil edir.

O da məlumdur ki, ölkə turizmi son zamanlar inkişaf dövrünü yaşayır. İstirahət üçün ölkəmizə gələn xarici vətəndaşların sayı günügündən artır. Regionlara səfər edən turistlər yerləşmə üçün böyük xərc çəkmək istəmirlər. Onlar daha çox istirahətə və qidalanmaya meyllidirlər. Bu mənada regionlarda ekonom klass, 2-3 ulduzlu otellərin daha da artırılması zərurəti yaranır.

Hətta Prezident İlham Əliyevdə bölgələrdə iki-üç ulduzlu otellərin sayının artırılmasının vacibliyi barədə çıxış edib.

Xatırladaq ki, 2017-ci ildə ölkə başçısı İlham Əliyevin Nazirlər Kabinetinin iclasında çıxış edərək bildirib ki, Azərbaycan dünyada təhlükəsiz, sabit ölkə kimi bilinir. Prezident xüsusilə Bakıda və bölgələrdə yeni otellərin tikilməsinə böyük ehtiyac olduğunu bildirərək, sahibkarları bu işə dəstək olmağa çağırıb: "Mən sahibkarlara məsləhət görərdim ki, bu sahəyə investisiya qoysunlar. Çünki bu, gəlirli sahədir və yaxşı nəticə verəcək". Şübhəsiz ki, ölkə başçısının fikirləri həm xaricdən, həm də regionlardan paytaxta gələn, oteldə gecələmək istəyən və ya regionlara səfər edən turistlərin yerləşmə zamanı rastlaşdıqları problemi olduğu kimi əks etdirir. Seçim imkanının olmaması insanların narazılığına səbəb olmaqla bərabər, turizmin inkişafına da mənfi təsir göstərir. Bir sıra otellər sadəcə 4-5 ulduzlu olduğu üçün insanlarda seçim imkanını çətinləşdirir. Bu tip otellərin qiymətləri isə hər kəsin cibinə uyğun olmadığından müxtəlif problemlər yaranır. 2-3 ulduzlu otellərə və hostellərə olan tələbat həm də bu tip məsələlərdən qaynaqlanır. Bu baxımdan, təkcə Bakıda deyil, turizmin inkişaf etdiyi bütün regionlarda bu tip obyektlərin tikintisinə kəskin ehtiyac yaranıb".

Prezidentin məlum çıxışından sonra bölgələrdə iki üç ulduzlu otellər tikildi. Ancaq ekspertlər hesab edir ki, ölkədə iki üç ulduzlu otellərin sayı yetərincə deyil.

**Turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, regionlarda otellərin sayı artsa, bu, həmçinin daxili turizmin inkişafına səbəb olar.** İnsanlar tətillərdə, yay və ya qış aylarında, o cümlədən həftə sonlarında regionlara istirahətə getmək istəyirlər: "Bunun üçün ölkədə daxili turizmi inkişaf etdirmək vacibdir. Belə ki, Avropa ölkələrində turizm gəlirlərinin 80 faizi daxili turizmin payına düşür. Bu sahənin inkişafı daxil olan vəsaitin ölkədə qalmasına səbəb olur. Qiymətlər mövcud məvacibə uyğunlaşdırılmalıdır. Vətəndaşların Gürcüstan və digər qonşu ölkələrdə yox, regionlarda dincəlməyə üstünlük verməlrinə şərait yaratmaq lazımdır. Bununla da, vəsait ölkədə qalar və regionların turizm sahəsi inkişaf edər. Amma bunun üçün lazımı infrastruktur olmalıdır ki, onlardan başlıcası da otellərdir".

Ekspert hesab edir ki, əslində otellər vaxtında inşa olunmalı idi: "Eyni zamanda, həmin otellər müxtəlif ulduzlar almalıdırlar. Yəni tikiləcək otellər təkcə beşulduzlu olmamalıdır. Eyni zamanda, digər tipli otellərin tikintisinə ehtiyac var. Azərbaycanın sahibkarları bu sahəyə investisiya qoysalar, yaxşı nəticələr əldə etmək olar. Bölgələrdə iki-üç ulduzlu otellər var. Ancaq onların sayı çox deyil. Nəzərə almaq lazımdır ki, ulduzu az olan otellərin sayının artırılması həm turist axınının güclənməsinə səbəb olar, həm də ölkə iqtisadiyyatına gəlir gətirər.

Ümumilikdə, otel nə qədər ucuz və çox olsa, turist bir o qədər ölkədə çox qalar. Yəni otelin ucuz olması turistlərin ölkəmizdə daha çox qalmaları və daha çox pul xərcləmələrinə şərait yaradar. Bunun üçün isə şübhəsiz ki, bütün tip, ən əsası 2-3 ulduzlu otellər şəbəkəsi genişləndirilməlidir. İnvestorların bu istiqamətə yönələn investisiyaları isə ölkə başçısının dediyi kimi, gələcəkdə böyük gəlir deməkdir. Həmçinin turizmin inkişafı ölkənin regionlarının da inkişafına səbəb olar, yüzlərlə iş yerlərinin açılmasına və son nəticədə ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verər".

*Günel CƏLİLOVA*

# Gömrük Komitəsi ilə mal idxalçıları arasında daha bir qalmaqallı hadisəyə aydınlıq gətirildi...

**Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən "Bakı-Xəbər"ə verilən məlumata görə, bəzi kütləvi informasiya vasitələrində idxal əməliyyatları zamanı xarici iqtisadi ticarət iştirakçılarına Mərkəzi Gömrük Ekspertizası İdarəsi və Bakı Baş Gömrük İdarəsində gömrük orqanları tərəfindən süni maneələr yaradıldığı, malların laboratoriyaya və anbara göndərilərək sahibkarlardan qeyri-qanuni vəsaitlərin tələb olunduğuna dair həqiqətə uyğun olmayan məlumatlar yayılıb.**




Belə ki, məlumatda idxal edilən malların guya məqsədli şəkildə ekspertizaya göndərildiyi, prosesin günlərlə davam etdiyi və bu müddət ərzində sahibkarların nəqliyyat şirkətlərinə əlavə vəsaitlər ödədiyi iddia olunur. Digər iddiaya görə isə sahibkarların idxal etdikləri mallar gömrük orqanları tərəfindən məcburi qaydada anbara göndərilir və burada həm yükləmə, həm də xidmət müqabilində onlardan qeyri-qanuni vəsaitlər alınır.

Dövlət Gömrük Komitəsi bildirir ki, hər iki halda irəli sürülən iddialar tamamilə əsassızdır və gömrük qanunvericiliyinə uyğun olaraq həyata keçirilən proseslər qərəzli şəxslər və ya dairələr tərəfindən gömrük orqanlarının fəaliyyətinə kölgə düşürmək məqsədilə bilərəkdən yanlış şərh olunur.

Belə ki, idxal edilən hər hansı malın mənşə ölkəsi, təsnifat kodu və gömrük dəyəri haqqında gömrük orqanında şübhə yaranarsa, həmin mallar qanunvericiliyə görə Mərkəzi Gömrük Ekspertizası idarəsinə göndərilməlidir. Ekspertiza qanunla müəyyən olunan müddətdə başa çatdırılır və hər hansı qeyri-qanuni hal aşkar edilmədiyi təqdirdə sahibinə təhvil verilir.

Bu prosesin daha asan şəkildə həyata keçirilməsi və sahibkarların vaxt və əlavə vəsait itkisinə məruz qalmaması məqsədilə Dövlət Gömrük Komitəsinin sədri tərəfindən Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 50-ci və 322.2-ci maddələrinin müddəalarının tələblərindən irəli gələn məsələlərin icrası ilə əlaqədar ticarətin asanlaşdırılması üsullarından biri olan məcburi qərarların tətbiqinə dair sərəncam imzalanıb.

Gömrük Məcəlləsinin 50.1-ci maddəsinə əsasən, şəxs konkret mallar və əməliyyatlarla əlaqədar malların təsnifatını, gömrük dəyərini, mənşə ölkəsini və gömrük ödənişlərinin məbləğini əvvəlcədən müəyyənləşdirmək məqsədilə (mallar gömrük ərazisinə gətirilmədən öncə) gömrük orqanına yazılı, o cümlədən elektron formada müraciət edə bilər. Gömrük orqanları həmin müraciət əsasında bu mallar və əməliyyatlarla əlaqədar malların təsnifatının, gömrük dəyərinin, mənşə ölkəsinin və gömrük ödənişlərinin məbləğinin müəyyən edilməsi baxımından məcburi olan qərarlar qəbul edirlər.

"Məcburi qərar" adlandırılan bu qərarlar həmin Məcəllənin 50.4-cü maddəsinə görə (bu Məcəllənin 50.5-ci maddəsinə əsasən ləğv edilən qərarlar istisna olmaqla), malların təsnifatına, mənşə ölkəsinə dair məcburi qərarlar qüvvəyə mindiyi tarixdən etibarən 3 (üç) il müddətində, malların gömrük dəyərinə və gömrük ödənişlərinin məbləğinə dair məcburi qərarlar isə qüvvəyə mindiyi tarixdən etibarən 1 (bir) il müddətində qüvvədə olur.

Yəni xarici iqtisadi fəaliyyət iştirakçısı idxal edəcəyi malın nümunəsini və mala dair məlumatları əvvəlcədən gömrük orqanına təqdim edir və aparılan araşdırma nəticəsində qəbul edilən qərara görə idxal edilən mallar maksimum 1 iş günü ərzində sahibinə təhvil verilir.

Bir nəqliyyat vasitəsində bir neçə sahibkara məxsus malların gömrük nəzarəti prosesi zamanı malların gömrük anbarına yönləndirilməsinə gəlincə, bu proses də gömrük qanunvericiliyinə uyğun şəkildə həyata keçirilir. Belə ki, qanunvericiliyə görə, bir nəqliyyat vasitəsində bir neçə sahibkara məxsus malların gömrük nəzarəti qanunvericiliklə müəyyən edilən gömrük anbarlarında həyata keçirilməlidir. Bu zaman sahibkar gömrük orqanlarına yalnız mallara dair bəyannamə üzrə nəzərdə tutulan vergi və rüsumları ödəyir. Həmin gömrük anbarlarının və orada göstərilən xidmətə görə alınan və ödənilən vəsaitlərin isə gömrük orqanlarına aidiyyəti yoxdur.

Onu da qeyd edək ki, gömrük sistemində aparılan islahatların əsas istiqamətlərindən biri idxal-ixrac əməliyyatlarının, gömrük nəzarəti və rəsmiləşdirilməsi proseslərinin sadələşdirilməsi, sürətləndirilməsidir. Bu məqsədlə tətbiq edilən "Yaşıl dəhliz" buraxılış sistemində malların hər hansı gömrük nəzarəti metodu tətbiq edilmədən birbaşa sahibkarların anbarlarına yönləndirilməsi və özləri tərəfindən boşaldılması və yüklənməsi nəzərdə tutulur.

Digər tərəfdən 1 nəqliyyat vasitəsində bir neçə sahibkara məxsus müxtəlif təsnifat kodu altındakı malların idxalı zamanı malların sahibi və ya onun səlahiyyətli nümayəndəsi mallar barədə əvvəlcədən gömrük orqanına lazımi məlumatları təqdim edərsə həmin mallar da prioritet qaydada ən qısa vaxt ərzində gömrük rəsmiləşdirilməsindən keçirilərək sahibinə təhvil verilir.

Üstəlik, ticarətin asanlaşdırılmasını, sahibkar üçün münbit şəraitin yaradılmasını nəzərdə tutan bu yeniliklər və tətbiqlər barədə Dövlət Gömrük Komitəsinin rəhbərliyi və aidiyyəti qurumları tərəfindən xarici iqtisadi fəaliyyət iştirakçıları ilə keçirilən görüşlərdə, Komitənin rəsmi internet səhifəsi, KİV, maarifləndirici videoçarxlar və digər vasitələrlə dəfələrlə məlumat verilib. Artıq 200-dən artıq xarici fəaliyyət iştirakçısı "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə edərək malları birbaşa öz anbarına apara bilir.

Bundan başqa, Dövlət Gömrük Komitəsi tərəfindən gömrük-sərhəd buraxılış məntəqələrinin yaxınlığında Ticarətin Asanlaşdırılması Mərkəzlərinin yaradılması ilə bağlı yeni layihə icra olunur. Belə ki, "Yaşıl dəhliz" istifadəçisi olmayan xarici fəaliyyət iştirakçılarının idxal etdikləri mallar bu mərkəzlərdə asan və sürətli şəkildə gömrük nəzarətindən keçirilərək sahibinə təhvil veriləcək.

**Görülən işlərin, həyata keçirilən islahat və yeniliklərin müqabilində həqiqətə uyğun olmayan məlumatların yayımlanması, hətta daha irəli gedərək gömrük xidmətinin korrupsiya və rüşvətxorluqda ittiham edilməsi gömrük orqanlarının fəaliyyətinə qərəzli və məqsədli şəkildə kölgə düşürməkdən başqa bir şey deyil. Üstəlik, korrupsiya, rüşvət, bir sözlə, gömrük qanunvericiliyinin pozulması ilə bağlı faktları müəyyən edən şəxslər və bəzi dırnaqarası kütləvi informasiya vasitələri bu faktları ictimailəşdirmədən öncə, birbaşa aidiyyəti hüquqmühafizə orqanlarına müraciət edə bilərlər.**

*Baki-xeber.com*

# Azərbaycanda sənaye meşələri...dövlətin yeni layihəsi



*"Mebel və tikinti sektorunun inkişafı üçün meşə sənayesini inkişaf etdirmək lazımdır"*

## *Pərviz Heydərov: " Meşə sənayesinin yaradılması və onun inkişaf etdirilməsi əhəmiyyətlidir"*

**"Azərbaycanda sənaye məqsədli meşələr salınacaq". Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Aparat rəhbəri Vüqar Kərimov jurnalistlərə açıqlamasında deyib.**

O qeyd edib ki, ölkədə meşə fondu ərazilərinin hamısı tam olaraq meşə ilə örtülü deyil: "Elə ərazilər var ki, məsələn, Aran bölgəsində meşə fondu əraziləri olsa da, orada meşə yoxdur. Suvarma imkanları olan ərazilərdə sənaye məqsədli meşələr salmaq istəyirik. Elə ağac növləri var ki, onlar sürətlə inkişaf edir və həmin ağaclardan sənaye məqsədləri üçün istifadə etmək olar. Meşədən aparılan ağacların 90 faizi qeyri-yanacaq məqsədləri üçün istifadə edilir". Nazirlik rəsmisi əlavə edib ki, sahibkarlar sənaye məqsədli meşə əraziləri sala və həmin ağacların hesabına materiala olan tələbatlarını ödəyə bilərlər. Sənaye məqsədli meşələrin salınması meşələrə olan müdaxilələrin azaldılmasına, ona gəlir mənbəyi kimi baxılmamasına səbəb olacaq. V.Kərimov onu da qeyd edib ki, sənaye məqsədli meşələrin 2019-cu ildə salınacaq. Sənaye məqsədli meşələrin salınmasının əhəmiyyəti barədə danışan Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, mebel və tikinti sektorunun inkişafı üçün meşə sənayesini inkişaf etdirmək lazımdır: "Hazırda Azərbaycanın mebel sənayesi inkişaf dövrünü yaşayır. Zaman keçdikcə bu sahədə xammala olan tələbat artmaqdadır. Dünyada bir neçə məşhur mebel sənaye şirkəti var ki, onların məxsus olduğu ölkədə geniş meşə zolaqları yoxdur. Ancaq həmin şirkətlər xammalı kənardan alır. Rusiya dünyada sənaye xarekterli meşə zolaqlarının ən geniş massivinə malik böyük ölkələrdən biridir. Ölkəmizdə bu sahənin inkişaf etdirilməsi yaxşı olar. Meşə sənayesinin yaradılması və onun inkişaf etdirilməsi əhəmiyyətlidir. Ölkədə tikinti materiallarının istehsalı və mebel sənayesinin daha da inkişaf etməsi üçün meşə massivlərinin yaradılması vacibdir".

***Günel CƏLİLOVA***

# Orta məktəblərdə alternativ dərsliklər - Nazirliyin maraqlı layihəsinin hansı üstünlükləri var...

**Bu gün respublikanın bəzi orta ümumtəhsil məktəblərində, vahid dərsliklərlə yanaşı, alternativ dərsliklər də tədris edilir. Ekspertlərin bildirdiyinə görə, Təhsil Nazirliyi həm vahid, həm də alternativ dərsliyə rəsmən icazə verib.**

*"Təhsil Nazirliyi bir neçə dərsliyi tədris üçün yararlı hesab edir, amma hansı dərslikdən istifadə etməyi məktəb, sinif müəllimi özü seçir"*

***Kamran Əsədov:*** *"Etiraf edək ki, vahid dərslik bütün şagirdlərin bilik və bacarıqlarına uyğun deyil, elə bu səbəbdən alternativ dərsliklər daha effektlidir"*



Alternativ dərsliklərin zərərli olmadığını deyən ekspertlər bildirir ki, bu hal dərslik sahəsində uzun illər davam edən monopoliyanın qarşısını alır. Onlar qeyd edir ki, həm vahid, həm də alternativ dərslik tədrisə buraxılır və bu da onlar arasında sağlam rəqabətin yaranmasına gətirib çıxarır. Yəni hansı dərslik məzmunca keyfiyyətlidirsə və şagirdə daha dolğun informasiya verirsə, həmin dərslik də tədrisdə öz yerini möhkəmlədir. **Azərbaycanda hələlik alternativ dərsliklərin pilot olduğunu deyən tarix üzrə fəlsəfə doktoru, tanınmış təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, alternativ dərsliklər bir sinifdə eyni zamanda bir və ya bir neçə dərslikdən istifadə olunmasıdır.** O, alternativ dərsliklərin əhəmiyyətli olduğunu bildirərək dedi ki, dünyanın bir çox ölkəsində alternativ dərsliklərdən istifadə edilir. "Hazırda bəzi məktəblərdə pilot layihə kimi alternativ dərsliklər var. Bütövlükdə isə orta ümumtəhsil məktəblərində təhsil alan 1.5 milyon şagirdin hamısı vahid dərslikdən istifadə edir. Buna təsir göstərən amillərdən biri də qəbul və buraxılış imtahanlarıdır. Qəbul imtahanlarında vahid dərsliklərdən test tapşırığı tərtib edildiyi üçün narahatlıq yaranır ki, abituriyentlərin istifadə etmədiyi alternativ kitabdan sual düşə bilər. Etiraf edək ki, vahid dərslik bütün şagirdlərin bilik və bacarıqlarına uyğun deyil, elə bu səbəbdən alternativ dərsliklər daha effektlidir. Yəni şagirdlərin bilik və bacarıqlarına uyğun dərslikləri müəllim özü sərbəst şəkildə müəyyən edə bilər. Alternativ dərslik eyni zamanda bir və ya bir neçə dərslikdən istifadə edilməsidir. Yəni Təhsil Nazirliyi bir neçə dərsliyi tədris üçün yararlı hesab edir, amma hansı dərslikdən istifadə etməyi məktəb, sinif müəllimi özü seçir. Bunun effektli olmasının səbəbi odur ki, vahid dərslik bütün şagirdlərin bilik və bacarıqlarına uyğun deyil. Müxtəlif bilik və bacarıqlara malik olan şagirdlər üçün alternativ dərsliklər tərtib edib istifadəyə vermək lazımdır. Eyni zamanda, istənilən halda, minimal standart da təmin olunmalıdır. Dünyanın inkişaf etmiş ölkələrində geniş şəkildə alternativ dərsliklərdən istifadə olunur. Xatırladım ki, 2009-cu ildə qəbul edilən "Təhsil Haqqında" Azərbaycan Respublikası Qanununda alternativ dərsliklərdən istifadə nəzərdə tutulsa da, bu hələ də tam olaraq tətbiq edilməyib. Əsas problem məhz qəbul imtahanlarıdır. Zənnimcə, bunu aradan qaldırmaq üçün üst-üstə düşən mövzular mütəxəssislər tərəfindən müəyyən edilməli və ancaq o mövzulardan test tapşırığı təqdim olunmalıdır. Yəni vahid dərslikdən testlərin hazırlanması çətinlik yaradır. Təhsil rus dilində aparılan məktəblər üçün dərslik ayrıca olaraq yazılmır. Elə Azərbaycan dilində olan dərsliklər rus dilinə tərcümə olunaraq rus bölməsinin şagirdlərinin istifadəsinə verilir. Yəni rus bölməsinin dərslikləri daha yaxşıdır, keyfiyyətli və standartlara uyğundur demək düz olmazdı. Çünki hər iki bölmə üçün eyni dərsliklər istifadə olunur. Yeganə fərq tədris dili və ədəbiyyatdır ki, burda da ciddi fərq yoxdur".

Ekspert hesab edir ki, məktəbşünaslığı bilən aparıcı ekspertlərin orta məktəb dərsliklərinin yaradılması prosesinə cəlb edilməsinin faydası böyük ola bilər. Onun sözlərinə görə, orta məktəblər üçün alternativ dərslik və dərs vəsaitləri dedikdə, bizdə ilk növbədə orta məktəb dərslikləri və abituriyentlər üçün vəsaitlər arasındakı uyğunsuzluqlarla bağlı fikirlər yaranır. "Bunu kütləvi repetitorluğa səbəb olan amillərdən biri kimi qiymətləndirir, dərslik materialları və test bankları arasındakı uyğunsuzluqların mövcudluğunu orta təhsil pilləsi üçün ən ciddi problem hesab edirik. Təəssüflər olsun ki, son bir neçə il ərzində, xüsusən də yuxarı siniflərdə, dərslik ikinci dərəcəli vəsaitə çevrilib. Dərslikdən törəmə test proqram və məcmuələrinin dərsliyi - ilkin mənbəni sıxışdırması anormal haldır. Yəni hazırda vahid dərsliklər belə işləmir. Əvəzində hansısa müəlliflər tərəfindən tərtib olunmuş vəsaitlər daha çox istifadə olunur. Düşünürəm ki, orta məktəblər üçün alternativ dərsliklər zamanın tələbidir və buna qısa müddətdə keçmək lazımdır. Bəzi dərsliklərdə çətin məsələmisallardan, ibtidai siniflər üçün istifadə olunun dərsliklərdə şivədən, dialekt sözlərdən, uşaqların qavraya bilməyəcəyi şeirlərdən çox istifadə edirlər. Bu da dərsliklərimizin dilinə ağırlıq, akademiklik gətirir. Dərslik elə tərtib edilməlidir ki, uşaq bu dərsliyi bağlayıb kənara itələməsin, əksinə, sevsin. İbtidai sinif şagirdi kitabı üçün darıxmalıdır. Onları sevə-sevə açmalıdır. Ancaq təəssüf ki, bizdə bu baş vermir.

Problemin həlli üçün, istifadə olunun dərsliklərin seçimində yaxşını ancaq onda əldə etmək olar ki, alternativlər olsun. Məsələn, Gürcüstanda birinci sinif üçün 5-6 dərslik var. Bizdə isə orta məktəblərdə ancaq bir dərslikdən istifadə oliunur, deyirlər ki, bundan başqa heç bir dərslik ola bilməz, ona görə də təhsilimiz, dərsliklərimiz bu gündədir. Gürcüstanla yanaşı Almaniya, Türkiyə, ABŞ və başqa bir çox ölkədə çeşid-çeşid dərsliyin içindən biri seçilir, təsdiqlənir. Yəni nazirlik alternativ dərsliklər istifadəyə buraxır, ən uyğun olanı məktəb, müəllim özü seçir" - deyə ekspert bildirdi.

*İradə SARIYEVA*

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**ALLAHYAROV SƏDRƏDDİN NURƏDDİN oğlu**



5 yanvar 1965-ci ildə Azərbaycan Respublikasının Laçın rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Laçın rayonunun Əliqulu kəndində yaşamışdır. Könüllü olaraq Milli Ordu sıralarına qoşulmuşdur. Hərbçi. Allahyarov Sədrəddin Nurəddin oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 2 aprel 1992-ci ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Allahyarov Sədrəddin Nurəddin oğlu 2 aprel 1992-ci il tarixində Kəlbəcər rayonunun Qamışlı kəndi ərazisində Tunel adlanan yerdə erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Allahyarov Sədrəddin Nurəddin oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ALLAHYAROV VAQİF ƏBÜLHƏSƏN oğlu**

3 yanvar 1971-ci ildə Azərbaycan Respublikasının Dəvəçi (indi Şabran) rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Şabran rayonunun Xəlilli kəndində yaşamışdır. Şabran RHK tərəfindən hərbi xidmətə çağı-



rılmışdır. Hərbçi. Allahyarov Vaqif Əbülhəsən oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 2 oktyabr 1992-ci ildə Xocavənd rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Allahyarov Vaqif Əbülhəsən oğlu 2 oktyabr 1992-ci il tarixində Xocavənd rayonunun Əmiralılar kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Allahyarov Vaqif Əbülhəsən oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ALMASOV ƏLİ BAĞIŞ oğlu**



10 mart 1969-cu ildə Azərbaycan Respublikasının Biləsuvar rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Biləsuvar rayonunun Səmədabad kəndində yaşamışdır. Könüllü olaraq Milli Ordu sıralarına qoşulmuşdur. Hərbçi. Almasov Əli Bağış oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 26 iyun 1993-cü ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Almasov Əli Bağış oğlu 26 iyun 1993-cü il tarixində Ağdərə rayonunun Umudlu kəndi ərazisində Yeznə-Qumer dağının sol tərəfində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Almasov Əli Bağış oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ALMURADOV XƏQANİ AĞAQULU oğlu**

26 fevral 1969-cu ildə Azərbaycan Respublikasının Zəngilan rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Zəngilan rayonunun Şəfibəyli kəndində yaşamışdır. Könüllü olaraq Milli Ordu sıralarına qoşulmuşdur. Hərbçi. Almuradov Xəqani Ağaqulu oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi



birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 23 avqust 1993-cü ildə Cəbrayıl rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Almuradov Xəqani Ağaqulu oğlu 23 avqust 1993-cü il tarixində Cəbrayıl rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Almuradov Xəqani Ağaqulu oğlunun sonraki taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Bakı Mühəndislik Universitetində Maahatma Qandinin 150 illik xatirə tədbirinə Hindistan səfiri də qatıldı...

**Bakı Mühəndislik Universitetində Hindistan azadlıq hərəkatının böyük lideri və sülhün müdafiəçisi Mahatma Qandinin anadan olmasının 150-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.**



Tədbirdə, universitetin professor-müəllim heyəti və tələbələrlə yanaşı, Hindistanın Respublikasının ölkəmizdəki səlahiyyətli səfiri Şri B.Vanlalvavna da iştirak edib.

İlk öncə qonaqları qəbul edən universitetin rektoru, professor Havar Məmmədov təhsil müəssisəsinin fəaliyyəti haqqında ətraflı məlumat verib. Bildirib ki, universitetdə mühəndislik, iqtisadiyyat və pedaqoji ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir. Rektor xüsusi vurğulayıb ki, əksər ixtisaslarda tədris ingilis dilində aparılır. Bu da universitetin beynəlxalq əlaqələrinin inkişafına və beynəlxalq mübadilə proqramlarında iştirakına imkan verir. Hindistanın dünyada xüsusilə İT sahəsinə verdiyi töhvələrlə tanındığını qeyd edən professor Havar Məmmədov Hindistan universitetləri ilə BMU-nun əməkdaşlığına maraqlı olduğunu bildirib.

Səfir, səmimi qəbula və tədbirin təşkilinə görə universitet rəhbərliyinə təşəkkür edib. Ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin yüksək səviyyədə olduğunu və təhsil əlaqələrinin inkişafının vacibliyindən danışıb. Qeyd edib ki, təhsil əlaqələrinin inkişafı xalqların intellektual səviyyələrinin yüksəlməsinə xidmət edir.

Daha sonra universitetin akt zalında baş tutan tədbirdə hər iki ölkənin dövlət himnləri səsləndirilib və ardından Hindistan azadlıq hərəkatının lideri Mahatma Qandinin həyatını əks etdirən film nümayiş etdirilib.

Tədbirdə çıxış edən professor Havar Məmmədov Mahatma Qandinin xatirəsinə həsr olunmuş tədbirin xalqlarımız arasında yaxınlığa və gənclərin Qandi ideyalarının öyrənmələrinə töhvə olduğunu diqqətə çatdırıb. Onun ideyalarının dünyanı sülhə və insanlar arasında irqi ayrıseçkiliyin ortadan qaldırılmasına xidmət etdiyini bildirib.

Səfir Şri B.Vanlalvavna da, öz növbəsində, Mahatma Qandinin Cənubi Afrikada olduğu illərdə meydana gətirdiyi ideologiyasının mahiyyəti barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. O, Qandi ideyalarının və onun fəlsəfəsinin tarixin bütün vaxtlarında dünya üçün aktuallığından və əhəmiyyətindən danışıb. Bildirib ki, Qandinin beynəlmiləl olması onun sülhsevərliyindən irəli gəlir.

Tədbir BMU tələbələrinin ifasında Hind rəqsləri və musiqiləri ilə davam edib.

***Xəbər xidməti***

## "Azercell" ödənişsiz göz müayinələri təşkil etməyə davam edir

**Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC hər zaman fəaliyyətində sosial layihələrə xüsusi yer ayırır. "Azercell"in dəstəyi ilə 2011-ci il iyun ayının 1-də yaradılan "Mobil Göz Klinikası" bu layihələrdən biridir.**



Valideyn himayəsindən məhrum olan uşaqlarda göz xəstəliklərinin müayinəsinin təşkilini və profilaktikasının aparılmasını təmin etmək məqsədilə yaradılan "Mobil Göz Klinikası"nın xidmətlərindən eyni zamanda ahıllar, aztəminatlı ailələr və məcburi köçkünlər də yararlanır. Bu ilin fevral ayında klinikanın həkimləri Qaradağ rayonu, Sahil qəsəbəsində yerləşən "Müşviq" Əlil Uşaqlara Yardım İctimai Birliyinin 5 saylı Bərpa və Sosioloji Mərkəzinə səfər ediblər.

Layihə çərçivəsində 25 uşaq oftalmoloji müayinədən keçib. Ehtiyacı olan şəxslərə lazımi müalicə yazılıb və müvafiq eynəklər təyin edilib.

Qeyd edək ki, layihə çərçivəsində bütün müayinə və müalicə tədbirləri "Azercell"in dəstəyi ilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir. Fəaliyyətə başladığı gündən "Mobil Göz Klinikası" paytaxt Bakı daxil olmaqla Azərbaycanın əksər rayonlarda yerləşən uşaq və ahıllar evlərini, məktəbləri gəzib və 7500-ə yaxın şəxsə xidmət göstərib. Məlumat üçün qeyd edək ki, 2018-ci il ərzində "Azercell" "Mobil Göz Klinikası"nda 1368 nəfər müayinədən keçib.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

**Aydın Sani oğlu Əliyev,**
*Oğuz rayonu,*
*Kərimli kəndi,*
**1995**



### Üç rəngli bayraq

Bir bayraq ucaldı mavi göylərə.
İşıq, nur çilədi zülmət yerlərə.
Bir bayraq ucaldı, sanki günəşdi.
İnsanı qızdıran, oddu, atəşdi.

Hər xalqın özünün bayrağı vardır.
Bayraqlar yaradır insanlar əzəl.
Amma düşünürəm mən bir bayraq ki,
Gözəldir, gözəldir, gözəldən gözəl.

Üç rəngi bir edib, üçü də ümman
Biri ana təbiət, biri göy səma, biri də ki, qan.
Üç rəngli bayraqla fəxr edən cahan
Azəri yurdudur Azərbaycan.

Bayrağı dik tutun, möhkəm qoruyun.
Bayraq düşmən gözünə oxdur, nizədir.
Bayrağa uzanan qolları qırın.
Düşmən uzaqda deyil, üzbə-üzədir.

Mənim xalqımın sülhdür təməli.
Ancaq nə etməli, necə etməli?
Düşmən məhv yolun seçib.
Məhv edilməli!



## Rəfael Abasov- 75

*Məşhur rəssamın yubiley sərgisi keçirildi...*

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli İncəsənət Muzeyi və Azərbaycan Rəssamlar İttifaqının təşkilatçılığı ilə ərsəyə gələn bu sərgi Azərbaycan respublikasının Əməkdar rəssamı Rəfael Abasovun 75 illiyinə həsr olunmuşdur...**

Sərginin açılışında çıxış edən Azərbaycan Respublikası Mədəniyyət Nazirinin müavini Vaqif Əliyev xalqımızın dəyərli sənətkarı Rəfael Abasovun həyat-fəaliyyəti, təhsili və yaradıcılığı barədə ətraflı məlumat verərək qeyd etdi ki, Rəfael Abbasov nəinki ölkəmizdə, eləcə də dünya ölkələrində yetərincə tanınır. Onun yaradıcılığında portret janrı xüsusi yer tutur.

Azərbaycan Rəssamlar ittifaqının sədri, xalq rəssamı Fərhad Xəlilov isə sənətkarın tələbəlik illərindən söz açdı. Onun hələ Ə.Əzimzadə adına rəssamlıq məktəbində oxuyarkən incə zövqündən, səliqə-səhmanından, gələcəyin böyük rəssamı olacağına işarət verən gənclik yaradıcılığından dostcasına, səmimiyyətlə danışdı və onu ürəkdən təbrik edib daha böyük nailiyyətlər arzuladı...

Azərbaycanın xalq rəssamı, Azərbaycan rəssamlıq akademiyasının rektoru, akademik Ömər Eldarov öz çıxışında Rəfael Abasovun yaradıcılığında, o cümlədən də portret janrında işlədiyi əsərlərin akademik üslubundan ətraflı söz açdı. Bu üslubda işlədiyi əsərlərə onun öz içindən gələn canlı emosional duyğular gətirdiyini xüsusi qeyd etdi. Bu cür işləmələr isə rəssamdan böyük fiziki və psixoloji zəhmət tələb edir, deyə vurğuladı. Çıxışının sonunda rəssama xüsusi hörmət, ehtiram və təbriklərini çatdırdı

Azərbaycanın xalq rəssamı, professor Arif Hüseynov diqqəti onun və özünün uşaqlıq illərinə çəkdi və qeyd etdi ki, Rəfael elə uşaqlığından belə bir emosioanl xüsusiyyətə malik idi. Bu duyğusallıq hələ bizim rəssamlıq dərnəyində çalışdığımız vaxtlarda belə özünü büruzə verirdi. Çox qəribədir ki, bu gün onun yaşının 75-ə çatmasına inana bilmirəm. Bəlkə də inanmaq istəmirəm... Sənə uğurlar, əziz dostum! Mənim yaddaşımda həkk olunan o yeniyetməlik həraratilə ilə də yaradıcılığını davam etdir...

Azərbaycan xalq rəssamı Fuad Salayev də öz növbəsində ən yaxın dostu olan Rəfael Abasovu xüsusi təbrik edərək qeyd etdi ki, Rəfael bütün Abşeron yarımadasını qarış-qarış gəzərək bu ərazinin min bir rəng çaları olan mənzərələrini kətana köçürmüşdür. Mən fəxr edirəm ki, o, Abşeron mühitini, bu mühitin fəxr ediləcək rəssamlıq məktəbninin ən layiqli nümayəndəsidir. Arif müəllim düz qeyd etdi: O, elə anadan emosional, duyğusal doğulmuşdur. Heç şübhəm yoxdur ki, Rəfaelin bu duyğusallığı bu gün də onu tərk etməmişdir. Ümid edirəm ki, o indən sonra da bu cür gənclik hərarətilə yaradıcılığını davam etdirəcəkdir. Onun buna həm ruhi-mənəvi, həm fiziki durumu imkan verir...

Azərbaycan Rəssamlar İttifaqının məsul katibi, respublikamızın əməkdar incəsənət xadimi Rafiq Kərimov isə yubilyarı özünəməxsus tərzdə- poetik dillə, şeirlə təbrik edərək ona öz hədiyyələrini təqdim etdi.

Rəssamın digər dost-tanışları da onu gül dəstləri və suvernirlərlə təbrik etdilər.

Sonda söz alan əməkdar rəssam Rəfael Abasov özünün bu yubiley sərgisinin belə təmtəraqla keçirilməsinə görə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinə, Azərbaycan Milli İncəsənət Muzeyinə və Azərbaycan Rəssamlar ittifaqına dərin minnətdarlığını bildirdi. Eyni zamanda sərgiyə gələn bütün ziyarətçilərə də bu gəlişlərilə onu şərəfləndirdiklərinə görə xüsusi təşəkkürünü bildirdi.

Sərgidə rəssamın yüzə yaxın ən layiqli müxtəlif janr və mövzulu əsərləri nümayiş etdirilirdi. Təbii ki müəllifin portret janrında işlənmiş əsərləri isə öz parlaqlığı ilə xüsisolə göz qamaşdırırdı. Görünür, elə bu səbəbdən idi ki, salonda böyük bir anşlaq - böyük bir müvəffəqiyyətlilik hökm sürürdü.

Mən də öz növbəmdə xalqımızın bu dəyərli səntəkarını - əməkdar rəssam Rəfael Abasovu səmimi qəlbdən təbrik edir, ona yeni-yeni uğurlar diləyirəm.

***Binnət Hümbətoğlu,***
***Sənətşünas***

№ 47 (3945) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

12 MART 2019-cu il

www.baki-xeber.com

## Xoşbəxtliyin sirri tapıldı

Keçmişdə nə etdiklərinizin heç bir önəmi yoxdur. Əsas məqsədiniz indiyə və gələcəyə köklənmək, doğru addım atmaqdır. Yeni bir səhifəni açmaq üçünsə, digərini mütləq bağlamaq lazımdır. Çünki ömür kitablarımızın sayı da tək yox, onlardır. Odur ki, bəlli məqam yetişəndə, kənara çəkilib dincimizi almağa, sonra yenidən həyata sarılmağa gücümüz qalsın. Hadisələrin bitməsinə də imkan yaratmaq lazımdır ki, yeni macəramızın ardınca addımlayıb bağlı qapıları açaq. Bunun üçün aşağıdakı şərtlərə əməl etməliyik. "Mili.Az" qaranlıqda belə xoşbəxtlik işığı tapmağın 10 şərtini təqdim edir. 1. Həyatınızdakı hadisələr ürəyinizcə cərəyan etmirsə, panikaya düşməyin. Dərindən nəfəs alın, həyatın gözəlliyinin də bu eniş-yoxuşlar olduğunu xatırlayın. 2. Bəzən həyatınızın daha əvvəlki kimi olmayacağı faktı ilə barışmaq məcburiyyətindəsiniz. Unutmayın ki, bir son, estafeti başqa başlanğıca ötürür. 3. Dəyişə bilməyəcəyiniz şeylərə görə narahatlıq keçirməməyə başlayanda, daxili sakitliyinizə qovuşacaqsanız. Hadisələrin gedişatı ilə barışmaq lazımdır. Sadəcə gərəkli dərs alıb, addımlamalısınız. 4. Şəxsi inkişaf və irəliləyişin sirləri. Dünəni unudun. Yuxudan oyanıb, arzularınızı reallaşdırmağa tələsin. 5. Keçmişinizə qarşı nifrət və hiddət bəsləməyin. Emosiyalarınızı idarə etməyi öyrənin. Enerjinizi və fikirlərinizi sizi xoşbəxt edəcək məqamlar üzərində cəmləyin. 6. Bugünkü həyatınız dünənkindən kəskin fərqlənir. Həyata baxışınızdan çox şey asılıdır. Düşüncələriniz dəyişdikcə, həyatın mahiyyəti də fərqli olacaq. 7. Beyninizin qəbul etdiyi yeniliklərə sərgiləyəcəyiniz münasibətə özünüz qərar verirsiniz. Bir anlıq ətalətə qərq olub, keçdiyiniz çətinlikləri xatırlayın. Gücünüzün fərqinə varın. 8. Heç kimin sizə borcu yoxdur. Özünüzə bəs edəcək qədər zənginliyə sahibsiniz. Sadəcə əlinizdə olanları düzgün paylaşdırmağı öyrənin. 9. Şablon da səslənsə, bugünün işini sabaha qoymayın. Ömrünüzü uyğun zamanın gələcəyini gözləməyə sərf etməyin. 10. Sadə və təvazökar olun. Öyrənmək heç vaxt gec deyil. Daim axtarışda olun, biliklərinizlə yetinməyin. Və... Unutmayın, xoşbəxt həyat elə indi başlaya bilər. Sadəcə, sehirli cümləni unutmayın: "Bu andan etibarən...".

# Misirdə məbəd qulluqçusunun mumiyası tapıldı



**Misirin Luksor şəhərinin yaxınlığında arxeoloqlar maraqlı tapıntı aşkar ediblər.**

Onlar Amon tanrısının məbədinin qulluqçusunun mumiyasını tapıblar. "AZƏRTAC" bildirir ki, bu barədə Misirin qədim abidələr naziri Xalid əl-Annani məlumat verib. Mumiyanın aşkar olunduğu məzarın üç min il əvvəl tikildiyi bildirilir. Mütəxəssislərin ilkin məlumatına görə, bu məzarlıq qədim misirlilərin hörmət bəslədikləri Amon tanrısı məbədinin qulluqçusu üçün nəzərdə tutulub. Aşkar olunmuş mumiya barədə məlumat hələlik çox azdır və o, alimlər tərəfindən ətraflı araşdırmalar aparılmayıb. Ekspertizanın aparılması üçün müvafiq şərait yaradılmalıdır. Çünki, mumiyanın yaşının çox olduğundan alimlər Misirin tarixi üçün mühüm əhəmiyyət daşıya biləcək bu tapıntını zədələməkdən ehtiyat edirlər. Bundan əlavə, məzarda ritual maskalar və müxtəlif kiçik fiqurlar tapılıb. Məzarın divarları yaxşı vəziyyətdə qalmış qeyri-adi rəsmlərlə bəzədilib. Ekspertlər geniş araşdırmalar apardıqdan sonra ictimaiyyətə ətraflı məlumat verəcəklər.

## Elan

Şəki rayonu Kiçik Dəhnə kənd sakini Mirhəsənov Söhrab İsfəndiyar oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 1233 saylı torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsi (qrup İON 16-6) Cəmilə Xamməd qızı Qarayevanın tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Sarıyeva Günay Zabit qızına 17 iyun 2006-ci ildə Nizami rayon Xalid Quliyev adına 62 saylı məktəbdə verilən 259050 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Əhmədova Bəsti Cavanşir qızına Azərbaycan Dövlət Pedaqoji Unversiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Məmmədov İlkin Pirməmməd oğlunun adına hərbi bilet, sürücülük vəsiqəsi, 90 OH 905 nömrəli avtomobilin texniki pasportu və Əliyev İlham Abbasqulu oğlu tərəfindən verilmiş etibarnamə itdiyi üçün etibarsız sayılır.

Məmmədrzayev Əmrulla Beybut oğlunun adına Abşeron rayonu, Qobu qəsəbəsində yerləşən torpaq sahəsinə 22.02.2018-ci il tarixli verilmiş Çıxarış (reyester № 308013058481) itdiyi üçün etibarsız sayılır.

Məmmədrzayev Aidə Əliyulla qızının adına Abşeron rayonu Qobu qəsəbəsində yerləşən torpaq sahəsinə verilmiş Çıxarış (reyester № 308013100496) itdiyi üçün etibarsız sayılır.

Feyzullayeva Firuzə Əziz qızının adına Şamaxı rayonu Hacıqədirli kəndində yerləşən torpaq sahəsinə verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə JN-024 kod 41004038 itdiyi üçün etibarsız sayılır.

Qasımlı İlqar Rafiq oğlunun adına Lənkəran rayonu ŞDYPİ tərəfindən verilmiş sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şükürlü Şahbaz Şahbala oğlunun adına Bakı şəhəri, Fətəli Xan Xoyski pr-ti ev 113, mənzil 1 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Bədəlova Çinarə Çingiz qızına Azərbaycan Dövlət İqtisad Unversiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əliyeva Atlaz İslam qızının adına Bakı şəh, Biləcəri qəsəbəsində yerləşən evə Biləcəri Bələdiyyəsi tərəfindən verilmiş qərar itdiyi üçün etibarsız sayılır

Bakı şəhəri Binəqədi rayonu, M.Ə Rəsulzadə qəsəbəsi 2-ci Dəmiryol küçəsi ev № 1 ünvanının sahibi Fazil Ağamirzə oğlu Quliyevin adına verilmiş Çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

## Yeni hörümçək növləri aşkar edildi

Avstraliyanın qərbində tədqiqatçılar üç yeni hörümçək növünü aşkar ediblər. "AZƏRTAC" bildirir ki, bu barədə "Fox news" saytı məlumat yayıb. Entomoloq Cozef Şubertin sözlərini sitat gətirən sayt yazır: "Avstraliyada aşkar etdiyimiz üç yeni hörümçək növünü təqdim edirik. Onlara artıq rəsmi adlar da verilib - Maratus aquilus, Maratus felinus və Maratus combustus". Həşəratları tapan mütəxəssislərin qənaətinə görə, bu hörümçəklər öz parlaq rəngləri ilə fərqlənir və insanlar üçün təhlükəli deyil. Onların ölçüləri isə təqribən düyü dənəsi boydadır.





**Qoç** - Günün ilk yarısında ehtiyatlı olun. İşdə rəhbərliklə mübahisə etməyin, riskli addımlar atmayın. Maraqlarınızı nə qədər fəal qorusanız, sədlərlə mənaeləri bir o qədər sürətlə dəf edə bilərsiniz.



**Buğa** - Mühüm planlardan birində önəmli dəyişikliklər gözlənilir. Yeni, mürəkkəb işə başlamayın. İşgüzar tərəfdaşlarla təmaslar xüsusi diqqət tələb edir. Anlaşmalar və sövdələşmələr üçün münasib zaman deyil.



**Əkizlər** - Günün ilk yarısında maraqlı xəbərlər eşidəcəksiniz. Xərclər artacaq. Yeniliklərə çox aludə olmayın. Güclü emosiyaların təsiri altında qərarlarınızı dəyişməyin. Məşğul olduğunuz işi yarımçıq qoymayın.



**Xərçəng** - Qayğılarınız, görüləsi işləriniz artacaq. Problemlərin sayı sürətlə çoxalacaq. Birlikdə çalışdığınız insanların maraqlarını nəzərə alın, onların da mövqelərini düşünün. Tələb olmadan məsləhət verməyin.



**Şir** - Günün ilk yarısında tərəfdaşlarla münasibətlərdə çətinliklər yaranacaq. Mövqeyinizi mütləq həqiqət saymayın. Qarşı tərəfin dediklərinə diqqətlə qulaq asın. Maraqlandığınız işin mübhəm təfərrüatları ilə tanış ola bilərsiniz.



**Qız** - Yeni işlərlə tələskənliyə yol verməyin. Proseslərin sürəti azalacaq. Xərclərinizə fikir verin, bədxərclik etməyin. İlk növbədə, gərəcəyiniz işlərlə bağlı qəfil xəbər alacaqsınız. Aldığınız təklif nə qədər cazibədar təsir bağışlasa da, şirniklənməyin.



**Tərəzi** - Məqsədə doğru birbaşa hərəkət əvəzinə çevik, bir qədər də hiyləgər fəaliyyətə üstünlük verin. Manevrlərin gözlənilməz nəticəsi olacaq. Sizi razı salan münasibətlərlə risk etməyin.



**Əqrəb** - Yaranmış situasiya problemlərin həlli ilə bağlı müxtəlif variantlar təklif edir. Qəfil xəbərlərə fikir verin. Hansısa məsələ ilə bağlı mövqeyinizi kökündən dəyişəcəyiniz istisna deyil.



**Oxatan** - Hadisələrin axarından kənar qalmağa can atmayın. Qəfil tanışlıq ola bilər. Yeni müttəfiq və ya tərəfdaş qazanmaq şansını əldən verməyin. Xidmət, faydalı məlumat mübadiləsi olmalıdır.



**Oğlaq** - Kommersiya məsələləri və kollektiv tədbirlərdə mövqelərinizi müdafiə edin. Gəlir əldə etmək üçün istənilən imkandan istifadə edin. Perspektivə hesablanmış yeni fəaliyyət variantlarını hesablamaq olar.



**Dolça** - Aldığınız informasiyaları təhlil edin. Həmkarlar və tanışlarla danışıqlarda, müzakirələrdə diqqətli davranın. Bir müddət əvvəl təxirə saldığınız işləri unutmayın. İntuitiv olaraq yeni istiqamət seçə bilərsiniz.



**Balıqlar** - Gərgin, çətin gündür. Yaradıcılıq istəyi, emosiyalar bol olacaq. Uğursuzluqlarla yanaşı, uğurlar da istisna deyil. Əhvalınız yaxşı olsun. Dürüst istiqaməti seçin. Ətrafınızdakı olaylardan baş çıxarın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Ayaq ölçünüz neçə il yaşayacağınızı göstərir - Alimlərdən inanılmaz araşdırma

**Yer üzündə kimin nə qədər yaşayacağı heç kimə bəli deyil. Ancaq həkimlər deyirlər ki, əsas ipucu tam burunumuzun altındadır.**

"Milli.Az" xəbər verir ki, britaniyalı tədqiqatçılar ölüm ilə ayaq ölçüsü arasındakı əlaqəni tapıb. İki il ərzində tədqiqatçılar 3400 vəfat edən insanın bütün məlumatlarını toplayıb və araşdırma aparıb. Kembric Universitetinin professor Cim Hoc açıqlamasında qeyd edib ki, uzunömürlük ayağın ölçüsü ilə bağlıdır. Əldə edilən nəticəni təqdim edirik. Qadınların ömrü: 35 ölçü - 64 ilə 69 il arasında; 36 ölçü - 70 ilə 76 il arasında; 37 ölçü - 77 ildən 82 ilədək; 38 ölçü - 78 ilə 84 il arasında; 39 ölçü - 73 ildən 75 ilədək; 40 ölçü - 70 ilə 72 yaş arasında; 41 ölçü - 67 ildən 70 ilədək; 42 ölçü - 66 ilə 69 il arasında. Kişilər üçün: 38 ölçü - 66 ilə 69 il arasında; 39 ölçü - 67 ilə 72 yaş arasında; 40 ölçü - 72 ilə 75 il arasında; 41 ölçü - 73 ildən 77 ilədək; 42 ölçü - 75 ilə 82 il arasında; 43 ölçü - 74 ilə 79 il arasında; 44 ölçü - 67 ilə 72 yaş arasında; 45 ölçü - 66 ilə 69 il arasında.

***Hazırladı: Ramil QULİYEV***

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 5200*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.